QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 067 (6267) 17 aprel 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Pirşağı qəsəbəsində təmir-bərpa işlərinin təməli qoyulub

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər*



## Ceyhun Bayramov: "Postmünaqişə mərhələsinə qədəm qoymuşuq"



"Azərbaycan otuz ilə yaxındır əsas diqqəti danışıqlara yönəltməklə Ermənistanın beynəlxalq hüquq normalarına, beynəlxalq təşkilatların qərarlarına uyğun olaraq, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərini boşaldacağına ümid edirdi. Azərbaycan bu münaqişənin artmasına yol verməmək, haqqın səsini beynəlxalq birlik tərəfindən duyulması üçün səy göstərib".

Bax 5

## BANM-in rektoru YAP-ın fəal gəncləri ilə görüşüb

Bax 5



***Dünən Bakı Ali Neft Məktəbinin rektoru, YAP İdarə Heyətinin üzvü Elmar Qasımov partiyanın Gənclər Birliyinin bir qrup fəal üzvü ilə görüş keçirib. SİA-nın verdiyi məlumata görə, görüşdən öncə gənclərin bu ali təhsil ocağı ilə tanışlığı olub.***

## Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi Xarici İşlər Nazirliyinə çağırılıb



Aprelin 16-da Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəsi səfir Kestudis Yankauskas Xarici İşlər Nazirliyinə dəvət edilib.Xarici İşlər Nazirliyinin Mətbuat...

Bax 5

## Bizə belə sülhməramlılar lazımdırmı?!

Bax 11



Rusiya sülhməramlıları Ermənistandan Azərbaycanın ərazisinə daha bir rəsmi şəxsi buraxıblar - İrəvan şəhərinin meri Hayk Marutyanı. Özü də məhz Marutyanın Qarabağın dağlıq hissəsinə...

## "İsgəndər-M" raketləri Ermənistana 5 il öncə verilib

Bax 7



Azərbaycan ictimaiyyəti günlərdir 44 günlük Vətən müharibəsində Ermənistan tərəfindən Şuşaya atılmış "İsgəndər - M" raketləri barədə məsələni müzakirə edir. Rəsmi Moskvanın səlahiyyətli qurumlarından isə...

## Türkiyə-Ukrayna əməkdaşlığı - Qərbin təhlükəsizlik təminatı



Bax 10

Ukrayna Prezidenti Volodimir Zelenski ölkəsi üçün kritik bir dövrdə Türkiyəyə səfər edib...

## Avropa İttifaqının xüsusi nümayəndəsi separatçı ilə niyə görüşüb?

Bax 6



Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstanda böhran üzrə xüsusi nümayəndəsi, estoniyalı diplomat Toyvo Klaarın separatçı David Babayan və digərləri ilə görüşü sözügedən şəxsin mandatına ziddir və separatizmin stimullaşdırılmasına xidmət edir. Bunu siyasi şərhçi Elçin Mirzəbəyli deyib.

**Şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət qayğısı və institusional təşəbbüslər**



Bax 12

**Bayden yenə də çaşdı: Putinə Klutin dedi...**



Bax 14

**Dünyanı narahat edən xəbər**



Bax 16

# Pirşağı qəsəbəsində təmir-bərpa işlərinin təməli qoyulub

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər*



**_Aprelin 16-da Bakının Pirşağı qəsəbəsində yenidənqurma tədbirlərinə start verilib və təmir-bərpa işlərinin təməli qoyulub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər._**



Qeyd edək ki, Prezident İlham Əliyevin göstərişinə əsasən, 2019-cu ildən Bakı şəhərinin və Abşeron rayonunun qəsəbələrində xüsusi abadlaşdırma işlərinə başlanılıb. Balaxanı qəsəbəsinin timsalında uğurlu təcrübənin şahidi olmuşuq. Bibiheybət, Novxanı, Əmircan, Ramana qəsəbələrində də bu proses davam edir.

Artıq Pirşağı da mahiyyətcə qədim, formaca yeni simasını qazanacaq. Həyata keçirilən tədbirlərin əsas məqsədi buradakı insanların daha yaxşı şəraitdə yaşaması, özlərini daha rahat hiss etmələridir. Pirşağı tarixən iqlim terapiyası üçün əlverişli zona hesab olunub. Yekunda ekoloji vəziyyətin də yaxşılaşdırılması hədəf kimi qarşıya qoyulub.



Qəsəbədə abadlıq işləri həm mövcud binalar üzərində, həm də açıq məkanlarda aparılacaq. Mərkəzi hissədə məscidin qarşısında Şərq bağçılıq ənənələrinə uyğun parkın salınması nəzərdə tutulur. Ənənəvi "Çar-bağ" (Cahar-bağ) prinsipi ilə salınacaq parkın mərkəzində su hövzəsi yerləşdirilib və ondan dörd istiqamətdə yollar ayrılır.

Pirşağıda abadlaşdırma işləri məşğulluğun təminatına da müsbət təsir göstərir. Prosesdə iştirak edənlərin böyük əksəriyyəti məhz yerli sakinlərdən ibarətdir. Yeni siması ilə postpandemiya dövründə cəlbedici turizm məkanlarından birinə çevrilməyi hədəfləyən Pirşağıda tələbata uyğun məhsulların istehsalı da istisna edilmir.

Prezident İlham Əliyev: Burada həmişə yaxşı şanı üzümü var idi - ağ şanı, qara şanı.

"Bakı Abadlıq Xidməti" MMC-nin müdiri Bünyad Qasımov: 50 min ting əkmişik, davam etdiririk.

Prezident İlham Əliyev: Həmin sortdan?

Bünyad Qasımov: Hazırda dörd sort əkilib, ağ şanı da var, qara şanı da.

Prezident İlham Əliyev: Çox şirin idi, bal kimi.

Abadlaşdırma zamanı tarixi abidələrin bərpası və aşkarlanması əsas məqsədlərdəndir. Pirşağıda bu mənada bərpa-konservasiya olunacaq abidələrdən biri Hacı Şahverdi hamamıdır. Bu hamam XIX əsrdə Pirşağı qəsəbəsinin sakini Hacı Şahverdi tərəfindən inşa olunub. Yerli əhali arasında o, "Qum hamamı" kimi tanınır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hacı Şahverdi hamamı ilə tanış oldular. Dövlətimizin başçısı və birinci xanım qəsəbədə ağac əkdilər. Prezident İlham Əliyev Pirşağı qəsəbəsində yenidənqurma və təmir-bərpa işlərinin təməlini qoydu.

Bu il Mərdəkan, Buzovna və Maştağa qəsəbələrinin də bu prosesə qoşulacağı gözlənilir. Sonra dövlətimizin başçısı və xanımı qəsəbə ilə tanış oldular.

Bakı şəhərinin və Abşeron rayonunun qəsəbələrində həyata keçirilən bu layihələr həm tarixilik, həm də mövcud reallıqlar baxımından xüsusi əhəmiyyət kəsb edir. İlk növbədə, yerli memarlıq məktəbinin üslubları və özünəməxsus rəng çalarları yenidən canlandırılır və gələcək nəsillərə ötürülür. Post-müharibə və mövcud pandemiya reallığından baxdıqda isə iqtisadi gücümüzün böyük dərəcədə artdığı, hətta qlobal çağırışlara rəğmən, heç bir sosial layihənin ixtisar olunmadığı aydın görünür.

Pirşağı qəsəbəsində yenidənqurma işlərinin layihəsindən danışan Bünyad Qasımov bildirdi ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birgə müsabiqə elan etdik. Bu qəsəbədə yenidənqurma tədbirlərinin konseptual layihəsini hazırlamaq üçün 20-dən artıq iş topladıq. Sözsüz ki, qəsəbənin öz xüsusiyyətlərini, buranın ab-havasını, Abşeronun mədəniyyətini və digər amilləri nəzərə alacağıq.

# Eldar Tofiq oğlu Quliyev



Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi, tanınmış kinorejissor və ssenarist, respublika Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq artisti, professor Eldar Tofiq oğlu Quliyev 2021-ci il aprelin 16-da ömrünün 81-ci ilində vəfat etmişdir.

Eldar Quliyev 1941-ci il yanvarın 18-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1958-1959-cu illərdə "Azərbaycanfilm" kinostudiyasında rejissor köməkçisi işləmiş, 1960-1966-cı illərdə Moskvada, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda kino rejissoru ixtisası üzrə ali təhsil almışdır.

Eldar Quliyev 1967-ci ildən taleyini "Azərbaycanfilm" kinostudiyası ilə bağlayaraq ömrünün sonunadək burada çalışmışdır. O, 1987-ci ildən "Azərbaycanfilm" kinostudiyası nəzdində "Debüt" eksperimental-gənclik yaradıcılıq studiyasının bədii rəhbəri olmuş, 1999-cu ildə Azərbaycan Professional Kinorejissorlar Gildiyasının prezidenti seçilmişdir.

Dünya kinematoqrafiyasının nailiyyətlərindən və qabaqcıl təcrübəsindən daim bəhrələnən Eldar Quliyev Azərbaycanın kino salnaməsinə yeni səhifələr yazmışdır. Sənətkarın ideya dərinliyi ilə seçilən, ictimai-siyasi hadisələr fonunda insan mənəviyyatının təhlilini xüsusi diqqətdə saxlayan və xeyirxahlıq, məsuliyyət, humanizm aşılayan zəngin yaradıcılığı mədəniyyətimizin qızıl fondunda layiqli yer tutur. Eldar Quliyevin "Bir cənub şəhərində", "Sevinc buxtası", "Babək" və "Nizami" kimi parlaq ekran əsərləri, eləcə də çox sayda digər bədii və sənədli filmləri Azərbaycan kinematoqrafiyasının nailiyyətləridir.

Məzmun rəngarəngliyi və mövzu aktuallığı, fəal vətəndaşlıq mövqeyi və müasirlik duyğusu, obrazların incə psixologizmi və hadisələrin həyatiliyi Eldar Quliyev sənətinin özünəməxsus cəhətlərini təşkil edir. Yaradıcılıq palitrası rəngarəngliyi ilə səciyyələnən sənətkar tamaşaçını ayrı-ayrı dövrlərin müasirinə çevirməyi bacarırdı. Onun xalqımızın keçmişinə ehtiram ifadə edən tarixi filmlərinin milli-mənəvi dəyərlərimizin təbliğində və gənc nəslin Vətənə sədaqət ruhunda tərbiyəsində əhəmiyyətli rolu vardır.

Böyük rejissorluq məharəti Eldar Quliyevə ölkəmizin hüdudlarından kənarda da geniş şöhrət gətirmişdir. Onun quruluş verdiyi, həmçinin ssenari müəllifi olduğu filmlər beynəlxalq kinofestivallarda Azərbaycan mədəniyyətini uğurla təmsil etmiş, sənətşünaslar və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır. Eldar Quliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi uzun illər səmərəli pedaqoji fəaliyyət göstərmiş, rejissorların bir neçə nəslinin yetişdirilməsi işində qüvvəsini, bilik və bacarığını əsirgəməmişdir. Onun sənət yolu gənc kinematoqrafçılar üçün bundan sonra da örnək olacaqdır.

Eldar Quliyevin Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Əməkdar incəsənət xadimi" və "Xalq artisti" fəxri adlarını almış, respublika Dövlət mükafatına və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülmüş, müstəqil Azərbaycanın ali mükafatları olan "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri ilə təltif edilmişdir.

Görkəmli sənətkar, mahir pedaqoq və səmimi insan Eldar Tofiq oğlu Quliyevin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev**
**Mehriban Əliyeva**
**Əli Əsədov**
**Sahibə Qafarova**
**Samir Nuriyev**
**Eldar Əzizov**
**Fərəh Əliyeva**
**Anar Kərimov**
**Emin Əmrullayev**
**Şəfiqə Məmmədova**
**Anar Rzayev**
**Fərhad Xəlilov**
**Azər Paşa Nemətov**
**Oqtay Mirqasımov**
**Rasim Balayev**

# XXI əsrin 44 günlük müharibəsi

## *Prezident İlham Əliyev: "Biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq"*



***Paytaxtımızda açılışı olan Hərbi Qənimətlər Parkı vətən müharibəsində Ordumuzun gücünün, işğalçı Ermənistanın məğlubiyyətinin göstəricisidir. Parkın adı hər şeyi demiş olur. 44 günlük müharibədə Azərbaycan ordusunun gücü nəticəsində erməni ordusu məhv edilərək, məğlubiyyətə uğradı. XXI əsrin müharibəsini aparan Azərbaycanın hərbi gücü, qüdrəti dünyaya səs saldı. 44 günlük müharibə zamanında Azərbaycan uğurlu əməliyyat keçirərək 30 ilə yaxın zamanda işğal altında qalmış torpaqlarını erməni təcavüzkarlarından azad etdi.***



Bu gün Bakıdakı Hərbi Qənimətlər Parkı 44 günlük müharibənin gedişi, Azərbaycan ordusunun qalibiyyəti ətrafında olan fikirləri əks etdirir. Belə ki, ermənilərin döyüş meydanından qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri olan Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hərbi Qənimətlər Parkının açılışı zamanı lövhənin qarşısında çıxış edərkən bildirib ki, Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb: "Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya Ermənistanın məğlubedilməz ordusu var".

### DÜŞMƏNİN TÖRƏTDİYİ MÜHARİBƏ CİNAYƏTLƏRİ

Artıq bu gün ermənilərin yaratmaq istədikləri mif dağıdılıb. Ölkəmizin dinamik inkişafı, güclü ordu quruculuğu, beynəlxalq münasibətlərdə Azərbaycanın milli maraqlarının müdafiəsi və təmin edilməsi ölkəmizin nüfuz və mövqeyini yüksəldib. Artıq Azərbaycan ordusu 90-cı illərin ordusu deyil. Nizami və güclü Azərbaycan ordusu var. Müasir silahlarla təchiz olunmuş ordumuz var və 44 günlük döyüş meydanında öz sözünün deyən bir ordu. Dövlət başçısı bildirib ki, hələ müharibənin getdiyi dövrdə Mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik. Həmin gün yetişdi. Cənab Prezident "Buraya gələn hər bir insan - Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər", deyərək bildirib ki, qoy ermənilər də görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı: "Budur, onlara verilən cavab. Qarabağ Azərbaycandır!".

44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törətdi. Döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirərək, dinc sakinləri qətlə yetirdi. Sərgilənən eksponatlar həm də düşmənin törətdiyi müharibə cinayətlərini özündə əks etdirir. Həmin qənimətlər arasında düşmənin dinc əhalimizin yaşadığı əraziləri və gecə saatlarında yaşayış binalarını hədəfə alaraq ölkəmizə atdığı "İsgəndər-M" raketlərinin qalıqları var. "İsgəndər M" raketinin qalıqlarına baxan Prezident İlham Əliyev "Şuşanı bax, bu "İsgəndər-M" raketləri ilə ermənilər atəşə tutmuşdular", deyərək bunun Ermənistanın hərbi cinayətinin sübutu olduğunu bildirib: "Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan "İsgəndər-M" raketləri ilə məhv etməyə çalışırdı. Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər".

### "İKİNCİ QARABAĞ MÜHARİBƏSİ DƏ BİZİM GÜCÜMÜZÜ GÖSTƏRDİ, MÜASİRLİYİ GÖSTƏRDİ"

Hərbi Qənimətlər Parkı Azərbaycanın əldə etdiyi tarixi Zəfərdə düşmənin məğlubluğunun nümayişi baxımından böyük əhəmiyyət malikdir. Azərbaycan tarixi qələbəni əldə etdi. Özü də 44 gün ərzində. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir: "Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq".

### "QƏBİRLƏRİ DAĞIDAN, ŞUMLAYAN, ÖLÜLƏRİN QIZIL DİŞLƏRİNİ ÇIXARAN, MƏSCİDDƏ DONUZ SAXLAYAN VƏHŞİDİR, BAŞQA ADI YOXDUR"

Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir. "Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq", deyən dövlət başçısı onların törətdikləri vəhşilikləri görəndə adamın dəhşətə gəldiyini söyləyib.

30 ilə yaxın işğal altında olan ərazilərimiz, tarixi və memarlıq abidələrimiz dağıdılıb, məhv edilib, tanınmaz hala salınıbdır. Əlbəttə ki, Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənələrini, onun mədəni kökünü özündə ehtiva edir. "Məscidlərdə inək, donuz saxlayıblar, bütün müsəlman aləmini təhqir ediblər, qəbirləri dağıdıblar, qəbirləri şumlayıblar, dəfn edilmiş insanların qızıl dişlərini çıxarıblar. Bu, vəhşi deyil, nədir?" deyən Cənab Prezident bildirib ki, bütün dünya gördü ki, onların əsas ideoloji amili nə idi: "Guya onlar burada azlıqda yaşayan mədəni, böyük sivilizasiyaya aid olan bir xalqdır, ətrafında da vəhşi müsəlmanlar bunları əhatə edir. Avropanın hər bir tinində bunu deyirdilər. Rusiyanın hər bir tinində bunu deyirdilər ki, bizə kömək edin, yoxsa bizi burada boğarlar. İndi hər kəs gördü bunun sivilizasiyası nədir, bunun mədəniyyəti nədir, bunun əxlaqı, mənəviyyatı nədir?! Qəbirləri dağıdan, şumlayan, ölülərin qızıl dişlərini çıxaran, məsciddə donuz saxlayan vəhşidir, başqa adı yoxdur. Bütün dünya bunu görüb və daha da çox görəcək".

Azərbaycan 44 günlük Vətən müharibəsində neçə illərə bərabər bir yol getdi, döyüş əməliyyatı apardı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib oldu. 30 illik bir həsrətə son qoyuldu və tarixi torpaqlarımız işğaldan azad olundu. Xalqımız üçün geniş yollar açıldı. Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Rəsmi xronika

**Prezident İlham Əliyev "Azərtütün Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin özəlləşdirilməsi haqqında Sərəncam imzalayıb.**

* * *

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə İslam Əməkdaşlıq Təşkilatının İslam Ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzi arasında statistika sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Fərman imzalayıb.**

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.**

# Türkiyə mediası Azərbaycan Prezidentinin ADA Universitetində keçirilən konfransdakı çıxışını işıqlandırmaqda davam edir




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 13-də ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransdakı çıxışı Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.***

AZƏRTAC xəbər verir ki, DHA və İHA xəbər agentlikləri, “Haber Global”, “Haber türk” telekanalları, “Sabah”, “Hürriyet” və digər qəzetlər dövlətimizin başçısının mövzu ətrafındakı çıxışı, iştirakçıların suallarını ətraflı cavablandırması barədə türkdilli ictimaiyyətə müfəssəl məlumat veriblər.

Xəbərlərdə 44 günlük Vətən müharibəsində Ordumuzun rəşadəti, Azərbaycanın qazandığı tarixi hərbi Qələbə, təcavüzkar tərəfin biabırçı məğlubiyyəti və xalqımıza qarşı törətdiyi cinayətlər, torpaqlarımızın düşməndən azad edilməsinin regionda yaratdığı seni siyasi vəziyyət, işğaldan azad edilən ərazilərin bərpası və digər məsələlər tam şəkildə əksini tapıb. Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev mövcud vəziyyəti tam açıq və aydın formada təqdim edib.













## Gennadi Nadolenko: ADA Universitetində təşkil edilmiş beynəlxalq konfrans çox əhəmiyyətli və maraqlı idi



ADA Universitetində təşkil edilmiş beynəlxalq konfrans çox əhəmiyyətli və maraqlı idi. Ukrayna Xarici İşlər Nazirliyi yanında Diplomatik Akademiyanın direktoru, ADA Universitetində “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” mövzusuna həsr edilmiş beynəlxalq konfransda iştirak etmiş Gennadi Nadolenko bu fikri AZƏRTAC-a müsahibəsində söyləyib. O vurğulayıb ki, konfransın gedişində çox maraqlı diskussiyalar olub, Azərbaycan Prezidenti İlham Əliyev konfrans iştirakçılarının bütün suallarına ətraflı cavab verib.

Ukrayna Xarici İşlər Nazirliyi yanında Diplomatik Akademiyanın direktoru deyib: “Ukrayna Azərbaycanın, Azərbaycan da Ukraynanın beynəlxalq miqyasda tanınmış sərhədlər daxilində ərazi bütövlüyünü həmişə, ardıcıl olaraq dəstəkləyib. Beynəlxalq birlik bir həqiqəti başa düşməlidir ki, belə adlandırılan dondurulmuş münaqişələr həmişəlik dondurulmuş vəziyyətdə qalmır. Vaxt yetişir, bu münaqişələrin “donu açılır” və onda hamıya “isti olur”. Beynəlxalq birlik belə münaqişələrin həllində daha qətiyyətli olmalıdır”.

G.Nadolenko sonda vurğulayıb: “Biz Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, o cümlədən vaxtilə çiçəklənən diyar sayılan Ağdam şəhərində olduq. Azərbaycan, xüsusən Bakı çox xoş təsir bağışladı. Bakı xüsusən indi, qışdan sonra təbiət oyanın vaxtda çox gözəl şəhərdir”.

# BANM-in rektoru YAP-ın fəal gəncləri ilə görüşüb

*Elmar Qasımov: "Bugünkü gənclərimiz bilikli, savadlı, vətənpərvər, dövlətini, xalqını sevən və bunu fəaliyyətlərində təsdiqləyən gənclikdir"*

***Dünən Bakı Ali Neft Məktəbinin rektoru, YAP İdarə Heyətinin üzvü Elmar Qasımov partiyanın Gənclər Birliyinin bir qrup fəal üzvü ilə görüş keçirib. SİA-nın verdiyi məlumata görə, görüşdən öncə gənclərin bu ali təhsil ocağı ilə tanışlığı olub.***



Tanışlıq zamanı bildirilib ki, Bakı Ali Neft Məktəbi dövlətimizin başçısı İlham Əliyevin 29 noyabr 2011-ci il tarixli Fərmanı əsasında SOCAR-ın strukturunda yaradılıb. Ali təhsil ocağı ilk



gündən Azərbaycan universitetlərinin reytinq cədvəlində liderliyini qoruyub. Bu ali təhsil ocağının yaradılmasında məqsəd fəaliyyətini xaricdə genişləndirən SOCAR-ın, eləcə də ölkənin digər sənaye sahələrinin müasir tədris proqramları və təlim texnologiyaları əsasında təhsil almış ingilisdilli mütəxəssislərə olan ehtiyacını ödəməkdir. Bu məqsədə çatmaq üçün, ilk növbədə, Bakı Ali Neft Məktəbində müasir tələblərə cavab verən təhsil infrastrukturu yaradılıb, tədris prosesinə yüksək ixtisaslı professor-müəllim heyəti cəlb olunub, tədrisə dəstək məqsədilə zəngin kitabxana-informasiya fondu qurulub. O da bildirilib ki, bu təhsil ocağının tələbələri transmilli, beynəlxalq neftqaz şirkətlərində, o cümlədən SOCAR-ın müəssisələrində istehsalat təcrübəsi keçirlər. Bu da onların gələcəkdə beynəlxalq standartlara uyğun kadrlar kimi yetişmələrinə imkan yaradır.

Tanışlıq zamanı vurğulanıb ki, dövlətimizin başçısı İlham Əliyev 2017-ci ilin mayında Bakı Ali Neft Məktəbinin yeni kampusunun açılışında iştirak edib. Açılışdakı nitqində Prezident bu fikri xüsusi olaraq qeyd edib ki, bu məktəbin yaradılması və artıq belə gözəl şəhərciyə köçməsi bir daha onu göstərir ki, Azərbaycan "qara qızıl"ı insan kapitalına sərmayə kimi qoyur. Azərbaycanın uğurlu neft siyasəti bu gün bütün sahələrə, o cümlədən təhsil sisteminə öz müsbət təsirini göstərib. Bakı Ali Neft Məktəbində təhsilin yüksək səviyyədə təşkilinə yaradılan şəraitdən məmnunluqlarını ifadə edən YAP Gənclər Birliyinin üzvləri xoş təəssüratlarını ali təhsil ocağının akt zalında davam etdirilən görüşdə bir daha bölüşüblər.

Gənclərlə görüşən Bakı Ali Neft Məktəbinin rektoru, YAP İdarə Heyətinin üzvü Elmar Qasımov onları salamlayaraq görüşün səmimiyyət əsasında davam etməsi üçün hər bir gənclə ətraflı şəkildə tanış olub. Birgə diskussiya şəklində davam edən görüşdə E.Qasımov ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğıdan geniş bəhs edib. Bildirib ki, dövlətimizin başçısı İlham Əliyev daim bu çağırışı edir, dünya təcrübəsinə nəzər salsaq görərik ki, ölkələrin inkişafında əsas faktor təhsildir, bilikdir, yeni texnologiyalardır. Bu gün Azərbaycanın dünyada innovasiyalar ölkəsi kimi tanınması və nüfuz qazanması məhz dövlətimizin həyata keçirdiyi təkmil islahatlara, yeniliyə, modernləşməyə meyilli olmasına əsaslanır. Yeni texnologiyaların tətbiqi təbii ki, öz növbəsində yüksək ixtisaslı kadrların yetişdirilməsini tələb edir ki, bu gün ölkəmizdə fəaliyyət göstərən bütün ali təhsil müəssisələrində, o cümlədən Bakı Ali Neft Məktəbində tələbələrin elmi biliklərini artırmaları, elmin dərinliklərinə yiyələnmələri üçün zəruri olan bütün şərait yaradılıb. Müasir çağırışlara uyğun olaraq gənclərimiz dünyanın ən nüfuzlu ali məktəblərində təhsil alırlar.

E.Qasımov bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, milyonların sevgisini qazanan Yeni Azərbaycan Partiyasının daim gənclərə böyük diqqət və qayğı ilə yanaşdığını, onların potensial imkanlarından səmərəli istifadə edildiyini diqqətə çatdırıb.

YAP İdarə Heyətinin üzvü bu fikri xüsusi vurğulayıb ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da zənginləşdirir. Bu gün partiyada təmsil olunan 760 mindən artıq üzvün böyük əksəriyyətini gənclər təşkil etməsi məhz partiyada onlara öz potensial imkanlarını ortaya qoymaq üçün geniş meydanın açılmasından xəbər verir.

O da bildirilib ki, belə görüşlərin davamlı olması əlaqələrin inkişafına, eyni zamanda, gənclərin təhsillə bağlı onları düşündürən suallara cavab tapmalarına böyük dəstək olacaq.

Dövlətimizin başçısı İlham Əliyevin 2017-ci ildə Bakı Ali Neft Məktəbinin yeni kampusunun açılışında ifadə etdiyi "Neft və qaz bundan sonra da ölkəmizin inkişafına xidmət göstərəcək, qeyri-neft sektoru isə ölkə iqtisadiyyatını şaxələndirəcək. Gənclər bizim uğurlu gələcəyimizi təmin edəcəklər. Beləliklə, Azərbaycan dövləti yaşayacaq, güclənəcək və xalqımız qürur hissi ilə bunu görərək daha da böyük həvəslə ümumi işimizə töhfə verəcək" əminliyini bir daha önə çəkən E.Qasımov gənclərimizi ölkəmizin daha da möhkəmlənməsində, qüdrətlənməsində fəal olmağa çağırıb. Bu fikir xüsusi qeyd olunub ki, Azərbaycan gəncliyi Vətən müharibəsində göstərdiyi qəhrəmanlığı, şücaəti ilə dövlətinə, xalqına bağlılığını dünyaya nümayiş etdirdi. Azərbaycan gəncliyi ilə qürur duyuruq.

Tədbirdə iştirak edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov səmimi münasibətə, tanışlıq üçün yaradılan şəraitə görə YAP İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova minnətdarlığını ifadə edib. Belə görüşlərin davamlı olacağına ümidvar olduğunu vurğulayıb. Diskussiya şəklində davam edən görüşdə Bakı Ali Neft Məktəbinin rektoru gəncləri maraqlandıran sualları cavablandırıb.

# Ceyhun Bayramov: "Postmünaqişə mərhələsinə qədəm qoymuşuq"



***"Azərbaycan otuz ilə yaxındır əsas diqqəti danışıqlara yönəltməklə Ermənistanın beynəlxalq hüquq normalarına, beynəlxalq təşkilatların qərarlarına uyğun olaraq, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərini boşaldacağına ümid edirdi. Azərbaycan bu münaqişənin artmasına yol verməmək, haqqın səsini beynəlxalq birlik tərəfindən duyulması üçün səy göstərib".***

Bu barədə xarici işlər naziri Ceyhun Bayramovun "TRT Deutsch" tərəfindən dərc olunmuş yazısında bildirilir. "2020-ci ilin 10 noyabr günü Azərbaycan, Ermənistan, bütün Qafqaz regionu tarixində yeni fəsil başladı. Azərbaycan, Ermənistan və Rusiya tərəfindən imzalanmış üçtərəfli bəyanat Azərbaycanla Ermənistan arasında 30 ilə yaxındır davam edən silahlı münaqişəyə son qoydu. Bu bəyanatın icrası bütün döyüşlərin dayandırılmasına, işğal olunmuş bölgələrin Azərbaycana qaytarılmasına gətirib çıxarıb. Bəyanatda həmçinin məcburi köçkünlərin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nəzarəti altında öz yurdlarına qaytarılmasını nəzərdə tutan mühüm müddəa da var", - deyə yazıda qeyd olunur.

Müəllifə görə, bu razılaşma regionda yeni reallıq və əməkdaşlıq üçün yeni imkanlar yaradır: "Razılaşmanın icrasına Rusiya və Türkiyənin töhfələri xüsusilə diqqətəlayiqdir. Bu qonşu dövlətlərin mühüm rol oynayaraq zəmanətçi olduqları həmin razılaşmanın yerinə yetirilməsi Cənubi Qafqaz regionunda çoxdandır ehtiyac duyulan sülh və sabitliyi təmin edəcək. Azərbaycan münaqişə bölgələrində olan erməni mənşəli vətəndaşlarını öz siyasi, sosial, iqtisadi məkanına yenidən qovuşdurmaq, bütün vətəndaşlarına etnik mənsubiyyəti və dini etiqadına baxmayaraq, eyni hüquq və azadlıqlar təmin etmək əzmindədir. Azərbaycan Respublikasının Konstitusiyası bunun üçün möhkəm hüquqi zəmindir. Artıq yeni postmünaqişə mərhələsinə, yenidənqurma və bərpa, dinc qonşuluğun bərpası mərhələsinə qədəm qoymuşuq. Bu da inkişaf və əməkdaşlıq üçün yeni imkanlar açır".

# Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi Xarici İşlər Nazirliyinə çağırılıb



Aprelin 16-da Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəsi səfir Kestudis Yankauskas Xarici İşlər Nazirliyinə dəvət edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın bu il aprelin 14-də Ermənistana səfəri çərçivəsində özünü "xarici işlər naziri" kimi qələmə verən, qanunsuz rejimin nümayəndəsi David Babayan ilə görüşməsi ilə bağlı səfir Yankauskasa etiraz bildirilib.

Aİ nümyəndəsi Toivo Klaarın münaqişə sonrası bölgədə yaranmış yeni reallıqları nəzərə almayan, kövrək sülhə təhdid doğuran və qarşı tərəfə əsassız gözləntilər verən addımlar atmasının yolverilməz olduğu vurğulanıb. Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin bu kimi fəaliyyətinin Azərbaycan tərəfinin ona olan etimadını heçə endirdiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

# Ermənistana güzəştə gedilməlidirmi?



**Qarabağımız separatçılardan, quldur rejimdən, qanunsuz silahlılardan tam şəkildə təmizlənməmiş heç bir "barter"dən söhbət gedə bilməz!**

Məlum olduğu kimi, Birinci Qarabağ müharibəsində 3000-dən çox hərbi və mülki şəxs itkin düşüb və söz yox ki, Ermənistan tərəfi əlinə düşən hər imkanda özünün diversant və terrorçularını "hərbi əsir" kimi təqdim etməkdənsə, əslində, bunun izahatını və cavabını verməlidir.

O da sirr deyil ki, Dilqəm və Şahbaz 7 ilə yaxın dövrdə diversant və terrorçu ittihamı ilə girov saxlanıldı, üstəlik, min-bir əziyyətə düçar olunan vətəndaşlarımız bu illər ərzində, demək olar ki, hər gün erməni vəhşiliyi ilə üzləşiblər. Etiraf edək ki, əgər müharibə olmasaydı və yaxud, Vətən müharibəsi bizim lehimizə nəticələnməsəydi, onlar hələ də orada saxlanacaqdılar. Bu da son deyil...

## Ermənilər də yaxşı bilirlər ki, onların tələbləri yersizdir

Bəllidir ki, işğaldan azad olunmuş ərazilərimizdə yüz minlərlə piyada əleyhinə minalar basdırılıb və indi həmin ərazilərin təmizlənməsi uzun müddət vaxt tələb edir. Çünki Ermənistan minalanmış ərazilərin xəritələrini Azərbaycana verməkdən imtina edir, yaxud saxta xəritələr verməklə necə deyərlər, çulunu sudan quru çıxarmağa çalışır. İnsanlarımızın azad olunmuş torpaqlarda minalara düşərək yaralanmaları, həyatlarını itirmələri isə nədənsə bir sıra xarici təşkilatların etinasızlıqları ilə müşahidə olunur. Ermənistan tərəfi bütün bunların müqabilində həyasızcasına 44 günlük müharibədən sonra Azərbaycan torpaqlarına göndərdikləri terrorçularını "hərbi əsir" kimi geri tələb edir. Bəs Azərbaycan belə olanda hansı addımlara getməlidir? Məlumdur ki, müvafiq qurumlarımız ermənilərin bu iddialarını rədd edir və cavablarını verirlər. Ermənilər də yaxşı bilirlər ki, onların tələbləri yersizdir. Lakin...

## Güclü və qüdrətli Azərbaycan dövlətinin öz ərazilərində antiterror əməliyyatları aparmaq şansı daha da çoxalmaqdadır

Lakin Azərbaycan öz qətiyyətini davam etdirməklə, Cenevrə konvensiyasından yola çıxaraq, mülki-humanitar hüququn prinsiplərini kobud şəkildə pozulmasını əsas gətirərək, minalanmış ərazilərin xəritələrini Azərbaycan tərəfinə verilməsi məsələsində Ermənistana maksimum şəkildə təzyiqlərin olması üçün bütün vasitələrdən istifadə etməlidir və edir də. Təkcə ötən həftə Ermənistanda itkin düşmüş əsgər valideynlərinin müdafiə nazirliyinin qarşısında kütləvi etiraz aksiyaları keçirmələri də belə nəticəyə gəlməyə zəmin yaradır ki, düşmən ölkə bir daha dərindən düşünməli və doğru olan addımını atmalıdır.

Xatırlayırsınız, amerikalı jurnalist Patrik Lankaster Ermənistanda MN binasının önündə övladlarının Qarabağa göndərilməsinə etiraz edən valideynlərdən müsahibə götürəndə, onlar övladlarının terrorçu damğası ilə Azərbaycanda tutulmasını istəmədiklərini bildirdilər. Məhz bu baxımdan, əgər həmin ərəfələrdə analoji şəkildə davaranmasaydıq onlar övladlarının terrorçu yox, qəhrəman olduğunu zənn edəcəkdilər. Hər halda, Qarabağımız separatçılardan, quldur rejimdən, qanunsuz silahlılardan tam şəkildə təmizlənməmiş heç bir "barter"dən söhbət gedə bilməz və erməni tərəfi bu reallığı dərk etməlidir. Əks halda, güclü və qüdrətli Azərbaycan dövlətinin öz ərazilərində antiterror əməliyyatları aparmaq şansı daha da çoxalmaqdadır.

***Rövşən RƏSULOV***

ANALİTİK-AKTUAL

# Avropa Xəbər Agentlikləri Alyansının Baş Assambleyası ilk dəfə onlayn formatda keçiriləcək



Avropa Xəbər Agentlikləri Alyansının (EANA) Baş Assambleyası ilk dəfə onlayn formatda keçiriləcək. AZƏRTAC xəbər verir ki, bununla bağlı qərar EANA-ya üzv xəbər agentliklərinin növbədənkənar toplantısında qəbul edilib. Videoəlaqə ilə baş tutan iclasda təşkilata üzv olan 30 agentliyin rəhbərləri, o cümlədən AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov iştirak edib.

Müzakirələr zamanı iştirakçılar Avropada koronavirus pandemiyası ilə bağlı tətbiq edilən məhdudiyyətlər, karantin rejimi və təhlükəsizlik məsələsini nəzərə alaraq Baş Assambleyanın onlayn şəkildə keçirilməsinin məqsədəuyğun olduğunu bildiriblər. Bu il mayın 19-21-də keçirilməsi nəzərə tutulan toplantı ilə yanaşı, qurumun yaz konfransının da təşkili planlaşdırılır.

Qeyd edək ki, Avropa Xəbər Agentlikləri Alyansı 1956-cı ildə Strasburqda təsis olunub. Dünya informasiya siyasətinə mühüm təsir imkanlarına malik bu media təşkilatı öz sıralarında Avropanın 32 aparıcı xəbər agentliyini birləşdirir. 2008-ci ildən EANA-nın üzvü olan AZƏRTAC təşkilatın fəaliyyətində yaxından iştirak edir. Alyansa France Press (Fransa), Press Associated (Böyük Britaniya), Anadolu (Türkiyə), APA (Avstriya), DPA (Almaniya), EFE (İspaniya) və digər informasiya agentlikləri daxildir. Keçmiş sovet ölkələri arasında EANA-ya yalnız AZƏRTAC, TASS və Ukrinform agentlikləri üzvdür.

# Avropa İttifaqının xüsusi nümayəndəsi separatçı ilə niyə görüşüb?



Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstanda böhran üzrə xüsusi nümayəndəsi, estoniyalı diplomat Toyvo Klaarın separatçı David Babayan və digərləri ilə görüşü sözügedən şəxsin mandatına ziddir və separatizmin stimullaşdırılmasına xidmət edir. Bunu siyasi şərhçi Elçin Mirzəbəyli deyib.

E.Mirzəbəyli qeyd edib ki, Toyvo Klaar Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələlərə çox həssas yanaşdığını, güzəştsiz mövqe sərgilədiyini çox gözəl bilir və bunu ona 44 günlük Vətən müharibəsindən öncə Bakıda keçirdiyi görüşlərdə detallı şəkildə başa salıblar:

"Toyvo Klaar Estoniyanın xarici işlər və müdafiə nazirliklərində yüksək vəzifələrdə təmsil olunmuş təcrübəli bir diplomat kimi dövlət müstəqilliklərinin ilk illərində ölkəsinin qarşılaşdığı "Narvaətrafı" separatçı hərəkatının və "Narvaətrafı Respublika" yaratmaq cəhdlərinin rəsmi Tallini hansı çətinliklərlə qarşı-qarşı qoyduğunu unutmamalıdır.

1993-cü il iyulun 16-da Narva və Sillamyae şəhərlərində separatçıların, ərazinin gələcəkdə Rusiyaya birləşməsi ilə bağlı "keçirdikləri" qanunsuz referendumu da həmçinin... Həmin dövrdə və indi Estoniya separatçıların qanunsuz hərəkətlərinə necə yanaşırdısa, Azərbaycanda öz torpaqlarında erməni separatizminin yenidən baş qaldırılması cəhdlərinə və bu prosesin stimullaşdırılmasına eyni prizmadan, yəni dövlətin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı müstəvisindən yanaşır.

Bu baxımdan, Toyvo Klaarın separatçıların tör-töküntüləri ilə görüşməsi, başa çatmış münaqişənin davam etdirilməsi cəhdlərinin, revanşizmin dəstəklənməsi, separatizmin və terrorizmin müdafiə olunması kimi dəyərləndirilməlidir. Ümid edirəm ki, Toyvo Klaar ən yaxın keçmişdə, 2017-ci ildə sələfi almaniyalı Herbert Zalberlə bağlı hadisəni unutmayıb. Həmin dövrdə Herbert Zalberin Cənubi Osetiyaya səfəri, orada verdiyi bəyanatlar, həmçinin qondarma rejimin başçısı Anatoli Babilovu "prezident seçilməsi" münasibətilə təbrik etməsi Gürcüstanın kəskin etirazı və Zalberin istefası ilə nəticələnmişdi".

# "Müharibə dövründə media platformasında da ən böyük dəstək qardaş Türkiyədən gəldi"

"Qardaş Türkiyə ilə Azərbaycan arasında Ortaq Media Platformasının yaradılması media tariximizdə inqilqabi hadisədir. Bu hadisə hər şeydən öncə iki qardaş xalqın milli maraqlarının qlobal media müstəvisində strateji baxımdan qorunmasına xidmət edəcək. Media yumşaq güc vasitəsidir. Eyni zamanda informasiya cəmiyyətinin ən universal və effektiv alətlərindən biridir. Onu istənilən sahəyə tətbiq etməklə maksimum səmərə əldə etmək mümkündür. Çünki söhbət qlobal informasiya məkanında milli maraqların qorunmasından gedir və bu məkanda ən strateji məsələlər məhz informasiya vasitəsilə həll edilir. Ona görə də digər bütün sahələrdə olduğu kimi iki qardaş ölkənin media sahəsində də də strateji əməkdaşlığı milli və qlobal çağırışdır. Artıq bu sahdə olduqca mühüm addımlar atılıb". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru Hikmət Babaoğlu deyib.



Deputat vurğulayıb ki, bu istiqamətdə Türkiyə Prezident Administrasiyasının İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri, hörmətli Fəxrəddin Altun və Azərbaycan Prezidentinin köməkçisi, hörmətli Hikmət Hacıyevin qısa müddətdə gördükləri böyük işlər bu mühüm vəzifənin icra edilmsi ilə bağlı konkret nəticələrə gətirib çıxarıb: "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında" "Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" layihə Milli Məclisdə təsdiq edilib. Bundan dərhal sonar Türk Şurasına üzv olan digər dövlətlərin də iştirakı ilə belə bir ortaq qurumun yaradılmasıyla bağlı məqsəd müəyyənləşdirilib və Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstanın media sahələrinə məsul şəxslərinin iştirakı ilə 9-10 aprel tarixlərində Bakıda toplantı keçirilib. Bu səmərəli və təşəbbüskar fəaliyyətdə Türkiyə Prezident Administrasiyasının İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri hörmətli Fəxrəddin Altun və Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin rolu böyükdür".

H.Babaoğlu vurğulayıb ki, biz ən yeni siyasi tariximizin çox mühüm bir səhifəsini yartdıq: "44 günlük müharibədə qardaş Türkiyənin verdiyi hərtərəfli dəstəklə torpaqlarımızı işğaldan azad etdik. Nəzərə almaq lazımdır ki, bu dəstəyin ən strateji istiqamətlərindən birini də informasiya müharibəsi platformasında olan dəstək təşkil etdi. Türkiyə Prezident Administrasiyası İctimaiyyətlə əlaqələr Şöbəsinin rəisi Fəxrəddin Altun Vətən müharibəsi prosesində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində xarici medianın diqqətini ölkəmizə cəlb etməklə səsimizin dünya ictimaiyyətinə çatdırılmasında mühüm fəaliyyət həyata keçirdi. Bütün bunlarla yanaşı Ortaq Media Platforması təkcə qlobal media məkanında birgə fəaliyyəti deyil həm də milli media məkanımızın qarşılıqlı inteqrasiyası baxımından olduqca əhəmiyyətli bir quruma çeviriləcək. Əslində milli media resurslarımız qlobal informasiya məkanında səmərəli fəaliyyətimizi təyin edən baza rolunu oynayacaq. Ona görə də bu istiqamətdə qardaş Türkiyə Respublikasının Bakıdakı səfirliyinin mətbuat müşaviri Hüseyin Altınalanın iki ölkənin media resursları arasındakı əlaqələrin koordinasiyalı şəkildə qurulması işinə verdiyi töhfəni də sırf informasiya müstəvisində xüsusi qiymətləndirmək lazımıdır".

***Aysel Məmmədova***

# Daş yaddaşımıza qarşı erməni vandallığı

*Şanlı Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü doğma Qarabağımızın azadlığa qovuşdurulması ilə yanaşı, tarixi, mədəni irsimizi də erməni vandallarından xilas etdi*



## 18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür

Aprelin 18-i dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) təklifi üzrə UNESCO tərəfindən 1983-cü ildə təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir. Təbii ki, tarixi abidələr daş yaddaşımıza cevrilib və hər bir xalqın kimliyini, kecdiyi tarixi yolu xatırladır. Ölkəmizdə yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələrin mövcudluğu fikrimizi tamamlayır. Azıx mağarasından tapılmış qədim insanın çənə sümüyü, Qobustanda aşkar edilmiş yaşayış məskənləri Azərbaycanda ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir. Tarixin müxtəlif dövrlərində ölkəmizin ərazisində dövlətlərin yaranması ilə qədim şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa olunub. Orta əsrlərə aid abidələr Qız Qalası, Möminə Xatun, Qarabağlar, Gülüstan, Allah-Allah türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri və s. nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindəndir. Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Hazırda dünyada baş verən siyasi proseslər nəticəsində minlərlə abidə məhv olmaq təhlükəsindədir. Bu baxımdan, Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunması böyük əhəmiyyətə malikdir. Abidələr və tarixi yerlərin məhv olmaq təhlükəsi ölkəmizdən də yan ötməyib.

Son illər ölkəmizdə tarixi abidələrin bərpası və qorunması istiqamətində bir sıra layihələr icra olunub. Ölkə başçısının böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir. Xalqımızın yaratdığı mədəni irs nümunələrinin dünyada tanıdılması istiqamətində də uğurlara imza atılıb. İçərişəhər memarlıq kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Qobustandakı muzey isə 2013-cü ildə Avropanın ən yaxşı muzeyləri sırasında olub.

## Abidələri yer üzündən silməklə, keçmişimizi, yaddaşımızı silməyə çalışıblar

30 ilə yaxin işğal altında olan ərazilərində və Qərbi Azərbaycanda vəhşi işğalçılar abidələrimizə, bizim tariximizlə, mədəniyyətimizlə bağlı yerlərə divan tutublar. Bu abidələri yer üzündən silməklə, keçmişimizi, yaddaşımızı silməyə çalışıblar. Tarixi mənbələrdə qeyd olundugu kimi, Azərbaycan torpaqları 1828-ci ildə "Türkmənçay" müqaviləsi ilə Rusiya və Iran arasında bölüşdürüldükdən sonra çar Rusiyası mərhələli şəkildə ermənilərin bu ərazilərdə məskunlaşmasına imkan yaratdı. Özlərinə yer eyləyən ermənilər illər uzunu öz murdar niyyətlərini həyata keçirməyə başladılar. Onlar Azərbaycan torpaqlarını işğal etməklə, tarixi-mədəni irsimizi, adət-ənənələrimizi, musiqimizi və incəsənətimizi özününküləşdirməyə cəhd edir, qədim tarixə malik olduqlarını bu yolla sübut etməyə çalışıblar. Məkrli niyyətlərinə nail ola bilmədikdə isə tarixi-mədəniyyət abidələrini, məscidləri, qəbiristanlıqları vəhşicəsinə dağıdıb, yer üzündən siliblər. Qərbi Azərbaycan indiki Ermənistan torpaqlarında 1913-1918-ci illərdə Irəvan şəhərində Sərdar sarayı kompleksi, çoxsaylı karvansaralar, hamamlar, türbələr dağıdılmışdır. Şah Ismayıl Xətainin öz vəziri Rəvanqulu xana tikdirdiyi Irəvan qalası, o cümlədən 1870-dən çox Azərbaycan-türk mənşəli tarix və mədəniyyət abidələri, bir o qədər də qədim və orta əsrlərə aid qəbiristanlıq, heykəllər, incəsənət nümunələri tamamilə məhv edilib. O illərdə Irəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid talan edilərək yandırılmışdır.

## Tarixi abidələrimiz əsirlikdən azad oldu

Şanlı Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü doğma Qarabağımızın azadlığa qovuşdurulması ilə yanaşı, tarixi, mədəni irsimizi də erməni vandallarından xilas etdi. 30 il müddətində işğal altında saxladıqları bütün tarixi, dini abidələrimizi məhv edibər. Cəbrayılda 132 tarixi abidə, Ağdam, Zəngilan, Qubadlı, Kəlbəcər və Füzuli rayonlarında yüzlərlə tarixi, memarlıq və mədəniyyət abidələri, on minlərlə eksponatı olan muzeylər düşmən əlinə keçərək viran edilmişdir. Şuşada XVIII əsrə aid Gövhər Ağa məscidi, Hacı Abbas məscidi və karvansaray, Hacı Yusifli məscidi, Cəbrayılda V və VII əsrlərə aid səkkizguşəli türbə, XVIII əsrə aid Sultanməcid hamamı, Zəngilanda XII əsrə aid Qız qalası, XIV əsrə aid səkkizguşəli türbə, Laçında XIV əsrə aid Məlikəjdər Türbəsi, Ağdamda dünyada ikinci olan Çörək Muzeyi, eramızdan əvvəl V əsrə aid Çalaqtəpə yaşayış məskəni, Qubadlıda IV əsrə aid Gavur dərəsi, V əsrə aid Qalalı və Keyqala abidələri, Kəlbəcərdə XIII-XVIII əsrlərə aid Xotavənd məbədi, Füzulidə 1682-ci ildə tikilmiş Qiyasəddin məscidi, 1684-cü ildə tikilmiş Qarğabazar karvansarayı və digər tarixi memarlıq abidələrimiz erməni vandalizminə məruz qalmışdır.

Ermənilər ələ keçirdikləri ərazilərdə 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırıblar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunub, 44 məbəd və 9 məscid təhqir edilib. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 600 min kitab və misilsiz əlyazma nümunələri məhv olunub. Ermənilər tərəfindən ən çox dağıntılara və tələfata məruz qalan islam dini abidələri, yəni məscidlər, türbələr və digər inanc yerləridir. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər dini dəyərlərimizə hörmətsizlik edərək Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlıların heysiyyətlərinə toxunmaga çalışıblar. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib.

Dövlətimizin başçısı işğaldan azad olunmuş Zəngilan rayonunda mənfur düşmən tərəfindən dağıdılan məsciddə olarkən "Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb", deyərək dünyanın buna 30 il ərzində səssiz qaldığını qeyd edib: "Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib. Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb?".

Bütün bu əməllərlə Ermənistan "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasını, "Arxeoloji abidələrin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasını, "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Paris Konvensiyasını, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Paris Konvensiyasını, "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasını və s. kobudcasına pozub.

Əsrlər boyu xalqımızın bu torpaqlarda qurub-yaratdığı evlər, muzeylər, məscidlər, tarixi-mədəni abidələrimiz ermənilər tərəfindən dağıdıldı, viran qoyuldu, talan edildi. Artıq torpaqlarımıza Böyük qayıdış başlayıb və möhtəşəm quruculuq işlərinə, o cümlədən Ölkə Prezidenti tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanın bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə də start verilib. Tezliklə bütün dünya Şuşanın, Qubadlının və digər məkanların yenilənmiş simasını görəcək, erməni vandalları isə törətdikləri vəhşiliklərin cəzasını tarix boyu çəkəcəklər.

Artıq işğaldan azad olunan torpaqlarımızda da tarixi abidələrimiz bərpa olunacaq. Həyat öz axarına qayıdacaq.

***Zümrüd BAYRAMOVA***

## "İsgəndər-M" raketləri Ermənistana 5 il öncə verilib


Коммерсантъ

Новости партнеров

А вы знали, для чего нужен режим полета в телефоне?

Лукашенко рассказал, какую страну считает дружественной

Эрдоган: На "Стамбул" не будет распространяться конвенция Монтрё

"Непристойность и грубость": Эрдоган ответил на оскорбления

Алиев обратился с просьбой к Лукашенко

Греф оценил

Раньше вопрос решался за счет выдачи кредитов. В 2016 году (тогда резко обострилась ситуация в Нагорном Карабахе) Ереван закупил несколько десятков пусковых установок реактивной системы залпового огня «Смерч», ПЗРК «Игла-С», наземные комплексы исполнительной радиотехнической разведки «Автобаза-М» и другую технику на общую сумму около $200 млн. Более того, как рассказал источник "Ъ" в сфере ВТС, в 2016 году Армения получила дивизион оперативно-тактических комплексов (ОТРК) «Искандер-М» с ракетами 9М723. Де-юре это нарушает договор о распространении ракетных технологий, поскольку дальность поражения цели у этих ракет превышает 300 км, признается собеседник "Ъ" в сфере ВТС. В Москве на такой шаг пошли вынужденно: ОТРК были срочно нужны Армении для поддержания военного паритета с Азербайджаном, обладающего куда большим арсеналом наступательного оружия. На создание же экспортной модификации «Искандера-Э», не подпадающего под ограничения, требовалось время, которого в случае решения Баку атаковать армянские позиции в Нагорном Карабахе, не было.

Azərbaycan ictimaiyyəti günlərdir 44 günlük Vətən müharibəsində Ermənistan tərəfindən Şuşaya atılmış "İsgəndər - M" raketləri barədə məsələni müzakirə edir. Rəsmi Moskvanın səlahiyyətli qurumlarından isə bugünədək tapılmış raket qalığı ilə bağlı Azərbaycana dolğun informasiya verilməyib.

Belə ki, sözügedən raket komplekslərinin Rusiya tərəfindən Ermənistana verilməsi hələ 3 il əvvəl Rusiya mətbuatında öz təsdiqini tapıb. Belə ki, 2018-ci ildə Ermənistanın yenicə Baş naziri olmuş Nikol Paşinyanın Rusiyaya səfəri ərəfəsində "Kommersant" nəşrində dərc olunmuş məqalədə Rusiyanın 2016-cı ildə Ermənistana "İsgəndər - M" raket komplekslərini satdığı qeyd olunub. Məqalədə bildirilib ki, Moskva raket texnologiyalarının yayılmasına dair müqaviləni pozsa da, bu addıma məcburən getməli olub. Qeyd olunub ki, sözügedən raket kompleksləri Ermənistana daha güclü hücum silahlarına malik olan Azərbaycanla hərbi pariteti qorumaq üçün verilib.

"Məhdudiyyətlər altına düşməyən "İsgəndər-E" raket komplekslərinin ixrac modifikasiyasının yaradılması üçün isə vaxt tələb olunurdu ki, bu da Bakının Dağlıq Qarabağdakı erməni mövqelərinə hücum qərarı verəcəyi təqdirdə mövcud deyildi", - deyə məqalədə yazılıb. ("Qafqazinfo")

# Biri varmış, biri yoxmuş, vir



***Mətbuat nümayəndələri üçün erməni işğalından azad edilmiş Ağdama səfər təşkil olunacağını və həmin səfərə mənim də dəvət olunduğumu biləndə sevincimdən yerə-göyə sığmadım - axı uşaqlıq xatirələrimdə qalmış bu şəhəri yenidən ziyarət etmək varmış qismətimdə. Düz 35 il əvvəl, 1986-cı ildə "Kommunist" qəzetinin Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə xüsusi müxbiri olmuş mərhum əmim Firuddin Rəsulov Qarabağa ezamiyyətə gedərkən məni də özü ilə aparmışdı. Ağdam, Füzuli, Şuşa, Xankəndi və daha haralar..! Uşaqlıq xatirəsi silinməz olur deyirlər. Həqiqətən də belədir, çünki o xatirələrimdəki Qarabağ üç onillikdən artıq bir müddətdə düşüncəmə necə həkk olunmuşdusa, elə də qalmışdı. Hətta işğal müddətində dağıdılmış, talan edilmiş Qarabağımızın videogörüntülərinə, fotoşəkillərinə baxarkən belə, düşüncələrimdəki cənnət Qarabağ onları yox edirdi. Lakin reallıq, fakt hər zaman öz sözünü deməkdədir və bu dəfə cənnət Qarabağa deyil, viran qalmış bir məkana - Ağdama gedirdim...***



**Təəssürat+fotolar**

### Ağdama getmək, həqiqətən də, müqəddəs ziyarətə bərabər bir səfər idi

Səfərin təşkilatçısı olan Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) idi və bütün səfər boyu agentliyin məsul əməkdaşı Rüstəm Əhmədov bizə, necə deyərlər, yol yoldaşlığı elədi, təhlükəsizliyimizin təminatından tutmuş digər məsələlərə qədər lazım olan bütün müvafiq tədbirləri operativliklə həll etdi. Rüstəm müəllim hələ səfərə başlayanda çox gözəl bir ifadə işlətdi. Dedi ki, Ağdama getmək müqəddəs ziyarətə bərabər bir səfərdir. Həqiqətən də, belə bir təəssürat var idi!

Eyni zamanda, fürsətdən istifadə edərək, səfərin təşkilatçısı, MEDİA-nın direktoru Əhməd İsmayılova bu ecazkar səfərdə iştirak edən həmkarlarımız adından dərin təşəkkürlərimi çatdırıram. Çünki tarixi Qələbənin dadını çıxarmaq, azad olunmuş Ağdama getmək, həqiqətən də, müqəddəs ziyarətə bərabər bir səfər idi.

Beləliklə, Ağdama səfərimizin ilk başlanğıc nöqtəsi keçid-buraxılış məntəqəsi oldu. Artıq ərazilərimizdə xidmətə başlayan polis gücləri siyahıda adları olan jurnalistlərin sənədlərini qeydiyyata aldılar və vacib bir xəbərdarlığı da etdilər - sağa, sola, kənar sahələrə keçmək qadağandır, mina təhlükəsi var! Bəli, məhz mina təhlükəsi Vətən müharibəsi başa çatandan sonra öz sözünü deməyə başlayıb təəssüf ki. Düşmənin birinci Qarabağ müharibəsi zamanı və sonrakı 27-30 ildə xaotik şəkildə minaladığı ərazilərin xəritələrini müvafiq konvensiyalara uyğun olaraq Azərbaycan tərəfinə verməməsinin nəticəsində mülki insanlarımız, hərbçilərimiz ağır xəsarətlər alır, eləcə də həyatlarını itirirlər. Bu təhlükəni yaşamamağımız üçün polislərimiz bizə dönə-dönə qayda və qanunları izah etdilər.



### Düşmənin buraxdığı mina izləri...

Buraxılış məntəqəsini keçdikdən sonra bizi ANAMA-nın region üzrə əməliyyat meneceri Ehtiram Cəfərov müşayiət etdi və ərazilərin ölüm təhlükəsindən necə təmizlənməsi barədə məlumat verdi. Qeyd etdi ki, bu ilin əvvəlindən ANAMA tərəfindən Ağdam rayonu ərazisində 146 ədəd tank əleyhinə mina, 189 ədəd piyada əleyhinə mina, 1251 ədəd partlamamış silah-sursat tapılaraq zərərsizləşdirilib. Daha sonra heyətimizə 5 ədəd tank əleyhinə minanın zərərləşdirilməsi anı nümayiş etdirildi.

### Zülfü müəllimin söhbətləri bizdə canlı ensiklopediya təsirini buraxdı

Səfərimiz Ağdamın yer üzündən silinmiş kənd və qəsəbələrinə, şəhər mərkəzinə doğru davam etdi. Onu da qeyd edim ki, Ağdamın işğaldan öncəki müəssisələri, binaları, mədəniyyət mərkəzləri, muzeyləri, təhsil ocaqları və s. barədə ən geniş təfərrüatlara malik olan şəxslərindən biri də Zülfü müəllimdir. Məhz Zülfü Qasımov uzun illər məsul vəzifələrdə çalışmış, hətta Ağdamın tarixi, ayrı-ayrı tanınmış şəxsləri barədə çox geniş məlumatlara sahib olan canlı ensiklopediyadır. Səfərimiz başlayandan ta başa çatana qədər, addım-addım, çox böyük həvəslə olub-keçmişləri bizə anladan Zülfü müəllim kəndlərin tarixləri ilə yanaşı, erməni vəhşiliklərinin ölçüyəgəlməz qəddarlıqları barədə də müfəssəl məlumatlar verdi. Ona görə də, düşündüm ki, onların hər birini ayrı-ayrılıqda yazmaq, izah etmək kifayət qədər böyük vaxt itkisinə səbəb olacaqdı. Bu baxımdan, yalnız ən vacib məqamlar, getdiyimiz tarixi əhəmiyyətli məkanlar barədə qeydlərimi aparmaq qərarına gəldim.

# ...an qalmış Ağdam varmış...









**Qəbirlərlə, daşlarla, abidələrlə savaşan vəhşi düşmən!**

Baş Qərvəndin girişində Almaniya faşizminə qarşı döyüşmüş əsgərlərin xatirəsinə ucaldılmış Böyük Vətən Müharibəsi abidəsinin erməni faşistləri tərəfindən necə darmadağın olduğunu görərkən bir daha əmin oldum ki, bu gün İrəvanda, eləcə də Qarabağda (Xocavənddə) abidəsi və büstü qoyulmuş Qaregin Njde onlar üçün nə qədər əhəmiyyətliymiş. Daha doğrusu, genetik kodları faşizm ideologiyası ilə yoğrulmuş bəşər üçün təhlükəli erməni-terrorçu düşüncəsi nəticədə bu abidənin dağıdılması ilə də özü təsdiqini tapmış olub. Ümumiyyətlə, daşı-daş üstündə qoymayan erməni işğalçıları bütün irili-xırdalı binaların daşlarını, tikintiyə yararlı materiallarını sökük-satıblar.

O cümlədən, Ağdam boyunca erməni işğalçılarının "Ohanyan müdafiə xətti" deyilən bufer zonalarından həm də belə nəticəyə gəlmək olardı ki, onlar işğalçılıq niyyətlərini uzun illərə bağlayırdılar. Zülfü Qasımov bizimlə söhbətində qeyd etdi ki, əgər Ağdam bir güllə atılmadan azad olunubsa, bu, yalnız və yalnız cənab Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, sarsılmaz iradəsi nəticəsində baş verib. Əks halda, burada da döyüşlər aparılsaydı, itkilərin sayı çox olardı. Yalnız cənab Ali Baş Komandanın müharibə vaxtı müəyyən etdiyi mükəmməl hərbi taktikaları sonradan Ağdamın və digər məlum ərazilərimizin döyüşsüz geri qaytarılması ilə nəticəsini tapdı və bu, dünya müharibə tarixində qızıl hərflərlə yazılmalı olan bir möhtəşəm hərbi uğurdur.

Yolüstü Ağdamın şəhidlər xiyabanlarını da ziyarət etdik. Gördüklərimiz bizi dəhşətə gətirdi. Milli Qəhrəman Allahverdi Bağırovun, Xocalıda şəhid edilmiş bir ailənin, eləcə də daha bir neçə qəbrin tapılaraq qismən bərpa edildiklərini gördük. Onlar isə söz yox ki, işğaldan sonra ağdamlılar tərəfindən aşkar edilərək düzənə salınan məzarlar idi. Yerdə qalanlarını isə gözlə görmək və erməni faşistlərinin insaniyyətdən nə qədər kənar, vəhşi məxluq olduqlarının şahidi olmaq lazımdır. Çünki qəbirlərin qazılaraq, hətta sümüklərin belə talan edilməsinə insan hansı adı verəcəyini də bilmir. Vəhşi ermənilər bununla sübut ediblər ki, onlar həm də qəbirlərlə, daşlarla düşmənçilik ediblər, nədir ki, onlar azərbaycanlıların olublar. Lakin hər şeyi yer üzündən silməyə çalışsalar da, buna nail ola bilməyiblər. Tarix geri dönür və hər şeyi yerbəyer edir!

Ağdamın və vaxtilə SSRİ-nin iki çörək muzeyindən biri olmuş binanın darmadağın olmasına baxmayaraq, onun divarlarında qalmış rəngli mozaikalar sanki bizlərə "çox da kövrəlməyin, yenidən dirçələcəyik", deyirdilər. Sonra isə Ağdamın poçt binası, Əbdürrəhman Haqverdiyev adına Dram Teatrının nələ çəkən binası, xatirələrdə yaşadılan məşhur "Çay evi" və...

### Və Cümə məscidi...!

Bir zamanlar Ağdamın ziyarətgah mərkəzlərindən biri kimi göz oxşayan Cümə məscidi erməni işğalçıları tərəfindən hərbi istehkam kimi saxlanılıb və çox ağır təhqirlərə məruz qalıb. Nəhayət, daha bir əhdimizin yerinə yetməsi həyacanı da bir tərəfdən aldığımız ağır, sarsıdıcı təəssüratlardan dolayı daha da artmışdı. Çünki bu məsciddə Azərbaycanımız, xalqımız və dövlətimiz, Prezidentimiz üçün dua edib, namaz qılmaq da vardı ömür payımızda. Həmkarlarımızla məscidə daxil olarkən ən dəhşətli mənzərə onun mehrabındakı güllə izləri idi. Cənab Prezident İlham Əliyevin və birinci vitse-prezident xanım Mehriban Əliyevanın Ağdama səfərləri zamanı məscidə hədiyyə etdikləri müqəddəs Qurani-Kərim və onun büküldüyü yaylıq bu müqəddəs ocağa ayrı bir əhval-ruhiyyə, ab-hava verirdi - biz bir daha səni düşmən əllərinə verməyəcəyik, deyirdi müqəddəs kitabımız!

Növbəti səfərimiz isə Ağdamın məşhur futbol klubu, Avropaya və dünyaya səs salan "Qarabağ"ın top qovduğu İmarət stadionu və həmin ərazidə yerləşən eyniadlı İmarət məzarlığı, Pənahəli xanın, oğlu İbrahimxəlil xanın, Xurşidbanu Natəvanın və övladının türbələrinə doğru idi. Bu türbələr də ya qismən, ya da tamamilə dağıdılaraq məhv edilib. Daxillərində isə mal-heyvan saxlanılıb. Bu vəhşiliklər, bu qeyri-insani rəftarlar Ağdamda hər addımbaşı qarşımıza çıxırdı.

### Şahbulaq bizə "xoş gəlmisiniz, ay bu torpaqların həqiqi yiyələri", dedi...

Nəhayət, son dayanacağımız Şahbulaq qalası oldu. Şahbulaq qalasına çatanda, Şahbulağın suyuna əl vuranda vətən torpağının doğmalığını daha da dərindən hiss edirik. Tarixi Şahbulaq qalası dağıdılmayıb. Hiyləgər ermənilər bu qalanı özlərinin tarixi yalanlarına yaxşıca alət etməyi bacarıblar. Qala muzey kimi istifadə edilib, qondarma rejimin saxta tarixini göstərən əşyalar, aksesuarlarla doldurulub. Şahbulağın ətrafı isə restoran kimi fəaliyyət göstərib. Lakin indi o tarixi qala yenidən bizə geri dönüb və qalanın alt qismində həzin-həzin axan Şahbulağın şırıltısı bizlərə "xoş gəlmisiniz, ay bu torpaqların həqiqi yiyələri, yolunuz axar su qədər pak olsun" deyə alqış edirdi. Səfərimizin sonunda isə xatirə fotosu çəkdirdik, həm özümüz üçün, həm də gələcək nəsillərimizə yadigar qoymaq üçün...

Allahın varlığına şükürlər olsun ki, artıq torpaqlarımız düşmən işğalından azad olunub və cənab Prezident İlham Əliyevin də vurğuladığı kimi, Qarabağımızı yenidən dirçəldib, ayağa qaldıracağıq. Qarabağımız dünyanın ən cənnətməkan guşələrindən birinə çevriləcək. Bax onda bizlər erməni işğalçılarının törətdikləri vəhşilikləri bir daha xatırlayaraq, bundan sonra heç vaxt itirilmələrinə yol verməyəcəyik, çünki QARABAĞ, AZƏRBAYCANDIR!

*Rövşən RƏSULOV,*
*Bakı-Ağdam-Bakı*

## 2342 şəhid ailəsinə vəsiqə verilib



Şəhid ailəsi üzvü statusu və vəsiqəsinin verilməsi prosesi davam edir. SİA-nın məlumatına görə, bunu Sosial Xidmətlər Agentliyinin idarə heyətinin sədri Vüqar Behbudov bildirib.

Onun sözlərinə görə, bu günə kimi 2342 şəhid ailəsinə vəsiqələr təqdim olunub: "Azərbaycanın torpaqlarının işğaldan azad olunması uğrunda şəhid olan hərçilərimizin ailələrinə vəsiqələrin təqdim olunması prosesi həyata keçirilir. Bu işi bizim əməkdaşlarımız səyyar şəkildə yerinə yetirirlər. Onlar şəhid ailələrinin evlərinə gedib, vəsiqələri təqdim edirlər. Bu günə kimi 2342 ailəsinin 4294 üzvünə bu vəsiqə təqdim olunub".

## Ermənistandan köçənlərin sayı artır



Nikol Paşinyan və komandası Ermənistan üçün parlaq gələcək vəd edir, amma bunu kiminlə, necə edəcəklərini dəqiqləşdirmirlər. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Hraparak" qəzeti yazır.

"Hər şey Ermənistanın gələcəyinin türklərin hesabına olacağını göstərir, çünki köçün mənfi tarazlığını görərək başa düşürük ki, bu gələcək qurulmadan əvvəl Ermənistanda heç bir erməni olmayacaq vəyalnız nikolçular, zombilər və onlarla əlaqəli insanlar qalacaq.

Beləliklə, yayımlanan statistik məlumatlara görə, yalnız bu ilin mart ayında Ermənistan vətəndaşları da daxil olmaqla, 74 197 sərnişin Zvartnos və Şirak hava limanlarından yola düşüb, 42 283 vətəndaş hava limanlarına qayıdıb. Mart ayında gedib qayıdanlar arasındakı fərq 31 914 nəfərdir. Sual yaranır ki, belə bir tempdə Ermənistanın gələcəyindən kim faydalanacaq", deyə qəzet yazır.

*İnam Hacıyev*

# Türkiyə-Ukrayna əməkdaşlığı - Qərbin təhlükəsizlik təminatı

*Ukrayna Prezidenti Volodimir Zelenski ölkəsi üçün kritik bir dövrdə Türkiyəyə səfər edib. O, aprelin 10-da baş tutan və səfər zamanı keçirilən 9-cu Ukrayna-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısı çərçivəsində müdafiə sektoru, sərbəst ticarət müqaviləsi və turizm məsələlərini müzakirə edib. Yeri gəlmişkən, Türkiyənin dövlət başçısı 2020-ci ilin fevralında 8-ci Ukrayna-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısında iştirak etmək üçün Kiyevə səfər etmişdi.*





Rəsmi Ankara dəfələrlə bəyan edib ki, dövlətlərin ərazi bütövlüyünün təmin olunması və toxunulmazlığı onlar üçün başlıca prinsiplərdəndir. Türkiyə bunu bütün dövlətlərə, o cümlədən qonşuları Suriya, İraq, Azərbaycan, Gürcüstan və başqalarına münasibətdə qoruyur. Rəsmi Ankara Ukrayna ilə də həmin prinsipin qorunması əsasında əlaqələrini qurub, əməkdaşlıq edir.

Ukraynanın ərazi bütövlüyünün qorunması məsələsi 1994-cü il mayın 18-də Ukrayna, Rusiya, Böyük Britaniya və ABŞ-ın dövlət başçıları tərəfindən imzalanan memorandumu bir daha yada salır. Həmin sənədə əsasən, Ukrayna ərazi bütövlüyü və suverenliyinin təmin olunması qarşılığında tabeliyindəki nüvə başlıqlarını təhvil verib. Fransa və Çin də sonradan bu memoranduma qoşulmuşdu. Deməli, Ukraynanın ərazi bütövlüyü və suverenliyinin qarantı olaraq atom silahına malik 5 dövlət çıxış edib. Bu ölkənin ərazi bütövlüyünün pozulması həmin dövlətlərin üzərinə düşən öhdəliyi yerinə yetirməməsi anlamına da gəlir. Odur ki, Ukraynanın ərazi bütövlüyü və suverenliyinin qorunması beynəlxalq hüquq normalarına tam uyğundur. Bu baxımdan Türkiyənin mövqeyi daha ədalətli və qanuni sayılır. Rəsmi Ankara bu qonşu ölkənin ərazi bütövlüyünü müdafiə etməklə yanaşı, Rusiya tərəfindən ilhaq edilən Krım məsələsini və oradakı yerli sakinlərin, türklərin (Krım tatarlarının) hüquqlarını da müdafiə edir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Ukrayna dünya ictimaiyyətinin diqqətini Krım mövzusuna çəkməkdə haqlıdır. Qeyd edək ki, Krım əvvəllər Osmanlı dövlətinin ərazisi olub. 1783-cü ildə II Yekaterinanın zamanında Rusiyaya ilhaq edilib. Osmanlı isə bu itki ilə razılaşmasa da, 1792-ci ildə Krımın Rusiyaya birləşməsini müqavilə ilə qəbul etməyə məcbur olub. Sonrakı dövrlərdə bu yarımada Osmanlının nəzarətinə keçsə də, yenidən Rusiyaya tabe olub. Sovetlər dönəmində bir müddət Rusiya Federasiyasının tərkibinə daxil olsa da, sonralar onu Ukraynanın ərazisinə qatıblar. Budapeşt anlaşmasında yarımada bu dövlətin tərkib hissəsi olaraq qəbul edilib. Türkiyə yerli əhali olan Krım türklərinin də hüquqlarını təbii olaraq müdafiə edir. Keçmiş SSRİ-nin lideri Stalinin əmri ilə onlar bir gecənin içində öz ev-eşiklərindən didərgin salınaraq Krımdan Orta Asiya respublikalarına sürgün ediliblər.

Bu kimi problemlərlə üzləşən Ukrayna hakimiyyəti beynəlxalq ictimaiyyətdən yardım da istəyib. Regionda vəziyyət gərinləşir: Rusiya Ukrayna ilə sərhədə hərbi qüvvə toplayır, Donbasda separatçıların hərbi aktivliyi artır. ABŞ Qara dənizə döyüş gəmilərini göndərir, ABŞ-ın dövlət katibi Entoni Blinken Brüsselə Ukraynadakı vəziyyəti müzakirə etmək üçün səfər edir və s. Göründüyü kimi, Zelenski belə bir mürəkkəb vəziyyətdə səfər edib.

Ukrayna-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısından sonra tərəflər ortaq bildiriş yayımlayıb. Həmin açıqlamanın bəzi müddəalarını qeyd edirik:

- Ukraynanın ərazi bütövlüyü və müstəqiliyinin qeyd-şərtsiz dəstəklənməsi təsdiq edilir;
- Krım Muxtar Respublikası, Sevastopol şəhəri, Donetsk və Luqansk bölgələrinin işğaldan azad edilməsi məsələsinin əlaqələndirilməsi davam edir;
- Krımın Rusiya tərəfindən qanunazidd və qanunsuz olaraq ilhaqını həll etmək üçün "Krım Platforması"nın yaradılmasına dəstək vermək;
- Krım Muxtar Respublikası və Sevastopol şəhərində insan hüquqlarının qorunması, hüquqa zidd olaraq tutulan Krım tatarları da daxil olmaqla Ukraynanın bütün vətəndaşlarının sərbəst buraxılması məqsədilə beynəlxalq aləmdə fəaliyyəti davam etdirmək və s.

Beləliklə, Zelenskinin səfəri və əldə edilən razılaşmalar sübut etdi ki, Türkiyə başqalarından fərqli olaraq beynəlxalq hüquq və normalara hörmət edir. Rəsmi Ankara dünyadakı münaqişələin həllinə yardım etməyə çalışır. Türkiyə bir daha sübut edir ki, regional əməkdaşlıq qarşıdurmalardan daha faydalıdır. Rəsmi Ankara Ukrayna məsələsinə yanaşma ilə münaqişələrin həllində ədalətli mövqeyini nümayiş etdirir. Türkiyənin Rusiya ilə yaxın iqtisadi əməkdaşlığı var. Qərb Moskva ilə yaxın münasibətinə, eləcə də "S-400" raket kompleksini aldığı üçün onu təhdid edir, ona sanksiya tətbiq olunur. Ancaq rəsmi Ankara beynəlxalq anlaşmalara və ikitərəfli müqavilələrə sadiqliyini sübut etməklə etibarlı tərəfdaş olduğunu isbatlayır. Başqa sözlə, Rusiya ilə hərbi, iqtisadi, energetika və turizm kimi sahələrdə əməkdaşlıq etməsi ona Ukraynanın ərazi bütövlüyünü müdafiə etməyə mane olmur. Rəsmi Ankara bu addımı Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi məsələsində də atır. Bu münaqişələrin həllinə Türkiyənin obyektiv yanaşmasının göstəricisi sayılır. Ukraynadakı hadisələr münaqişələrin həllinin vacibliyini bir daha təsdiqləyir. İki ölkə arasında əməkdaşlıq bu məsələlərə təkan verir. Qara dəniz hövzəsində təhlükəsizliyin təmin edilməsi, Qərbin, o cümlədən Avropa İttifaqına üzv dövlətlərin və NATO-nun təhlükəsizliyidir. Türkiyənin Ukrayna ilə münasibətləri bu prinsipə xidmət edir.

**Sədrəddin İsmayılov**

## ÜST açıqladı: Dünya koronavirusun yayılmasının ən yüksək səviyyəsinə yaxınlaşır



Dünya pandemiya ərzində koronavirusun yayılmasının ən yüksək səviyyəsinə yaxınlaşır: son iki ay ərzində yoluxanların sayında hər həftə təxminən ikiqat artım qeydə alınıb. Bu barədə cümə günü Cenevrədə keçirilən brifinqdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus bildirib: "Son iki ayda dünyada həftəlik qeydə alınan yeni yoluxma hallarının sayı təxminən iki dəfə artıb. Bu isə bizi bütün pandemiya dövrü ərzində yoluxmaların ən yüksək səviyyəsinə yaxınlaşdırır".

ÜST rəhbəri vurğulayıb ki, "əvvəllər COVID-19 virusunun geniş yayılmasından yaxa qurtaran bəzi ölkələr" hazırda yoluxmaların sayının kəskin artması ilə qarşılaşır. Bununla əlaqədar Baş direktor Papua-Yeni Qvineyadakı mürəkkəb vəziyyətə diqqət çəkib. 2021-ci ilə qədər bu ölkədə 900-dən az yoluxma və 9 ölüm halı qeydə alınıb. Hazırda isə 9300-dən çox yoluxma və 82 ölüm halı hesablanıb.

ÜST Cenevrədə çərşənbə günü dərc edilən həftəlik epidemioloji bülletendə xəbər verib ki, COVID-19-a yoluxmaların artımı yeddinci, ölüm hallarının artımı isə dördüncü həftədir ardıcıl olaraq davam edir. Ötən həftə 4,5 milyondan çox yeni yoluxma halları barədə məlumat daxil olub ki, bu da əvvəlki yeddi gün ilə müqayisədə 11 faiz çoxdur. Ölüm hallarının sayı 7 faiz artıb. ÜST-nin məlumatına görə, cümə axşamı dünyada koronavirusa yoluxmaların təsdiqlənmiş sayı 24 saat ərzində azı 805 min artaraq, 137 milyon 860 min nəfəri, ölüm hallarının sayı 13 min artaraq, 2 milyon 960 min nəfəri ötüb.

## Xalq artisti Eldar Quliyev vəfat edib



Azərbaycanı tanınmış kinorejissor və ssenaristi, xalq artisti Eldar Quliyev vəfat edib. Bu barədə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının Mətbuat xidmətinin rəhbəri Əli Vəliyev bildirib.

Xatırladaq ki, E.Quliyev yanvarın 18-də 80 illik yubileyi günü infarkt keçirərək xəstəxanaya yerləşdirilmişdi. O, fevralın 23-ü evə buraxılmışdı. Lakin vəziyyəti ağırlaşdığına görə aprelin 9-da yenidən xəstəxanaya yerləşdirilmişdi.

**Allah rəhmət eləsin!**

## 120 valideyn cəzalandırıldı



Uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə keçirilən reydlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 370 uşaq aşkarlanıb. SİA-nın xəbərinə görə, bu, Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun 2020-ci il üzrə illik məlumatında əksini tapıb.

Sənəddə bildirilib ki, qeyd edilən şəxslər də daxil olmaqla övladlarının təlim-tərbiyəsi ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməyən 120 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb.

# Bizə belə sülhməramlılar lazımdırmı?!

**Qarabağın 30 illik işğalına son qoyan Azərbaycan kimin, hansı ölkənin tərəfindən edilən cəhdlərə baxmayaraq, öz hüquqlarının yenidən pozulmasına heç vaxt imkan verə bilməz!**

Rusiya sülhməramlıları Ermənistandan Azərbaycanın ərazisinə daha bir rəsmi şəxsi buraxıblar - İrəvan şəhərinin meri Hayk Marutyanı. Özü də məhz Marutyanın Qarabağın dağlıq hissəsinə qanunsuz səfərindən öncə dediyi "Stepanakertdə iki erməni paytaxtları arasında əməkdaşlığın genişləndirilməsi məsələlərinin müzakirəsi aparılacaq" fikirlərindən sonra..!





Beləliklə, 44 günlük müharibədən sonra imzalanmış üçtərəfli bəyanata rəğmən, Rusiya sülhməramlıları kontingentinə həvalə, hətta etibar edilmiş Azərbaycan ərazilərində məhz bu kimi oyunbazlıqların qurulması heç də xoş olmayan ənənəyə çevrilməkdədir. Azərbaycanın rəsmi icazəsi olmadan Ermənistanın rəsmi şəxsləri mütəmadi olaraq Xankəndiyə və rus SM-nın nəzarətində olan digər ərazilərə səfərləri reallaşdırılır. Ermənistan rəsmilərinin həmin ərazilərimizi səfər meydanına çevirmələri qalsın bir yana, düşməndir və onun 44 günlük müharibədən əvvəlki həyasızlığı hələ də qalmaqda davam edir.

**Ruslar Ermənistan rəsmilərinin tanınmayan, qondarma "respublikaya" getmələri, oradakı quldur rejim rəhbərləri ilə görüşmə fürsətini niyə və hansı əsaslara söykənərək yaradırlar?!**

Ancaq bu zaman növbəti sual yaranır ki, Rusiya SM-ı onlara nəyə görə bu imkanı yaradır, məgər onlar bilmirlərmi ki, həmin vasitələrlə məhz Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı kobud qanunsuzluqlar törədirlər?! Üstəlik, Rusiyanın prezidenti Vladimir Putin də hüquqi cəhətdən Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bəyan etmişdisə, bu zaman ruslar Ermənistan rəsmilərinin tanınmayan, qondarma "respublikaya" getmələri, oradakı quldur rejim rəhbərləri ilə görüşmə fürsətini niyə və hansı əsaslara söykənərək yaradırlar?! Belə olanda isə istər-istəməz daha bir fikir yaranır: ya Putin sözünə sahib olmağı bacarmayan və ya etibarsız dövlət başçısıdır, ya da Kremldə XİN və prezidentlik arasında hökm sürən dərin parçalanma faktoru sözügedən məsələyə də təsirlərini göstərir. Biz bu kimi mövzularda Kremlin hər iki subyektinin - Rusiya prezidentinin köməkçisinin və XİN mətbuat katibinin bir-birinə zidd olan fikirlərinin şahidləri olmuşuq. Amma bunun da bir siyasi oyun olub-olmadığını zaman-zaman öyrənəcəyik...

**Rusiya SM-nın Qarabağda "mələk" qismində boy göstərmələrinə görə Azərbaycanda heç kimin gözü atmır!**

Fəqət, bu məsələdəki bütün hallarda etinasızlıq, həmçinin göstərilən etibara qarşı etimadsızlıq bilavasitə Rusiyanın üzərində məsuliyyət qoyur. Rusiya Ermənistanı özünə müttəfiq, strateji dost və s. kimi qəbul edə bilər, amma Moskva unutmamalıdır ki, Qarabağ Azərbaycandır və orada yaşayan ermənilər Ermənistanın deyil, Azərbaycanın vətəndaşları hesab olunurlar. Əgər onlar həqiqətən də Xankəndi və s. ermənilərinin dərdlərinə bu qədər yanırlarsa, buyursunlar çəkilsinlər kənara və Azərbaycanın müvafiq dövlət qurumlarının strukturlarının Xankəndiyə gedərək oradakı problemləri yerindəcə həll etmələrinə şərait yaratsınlar. Yoxsa ki, Rusiya SM-nın Qarabağda "mələk" qismində boy göstərmələrinə görə Azərbaycanda heç kimin gözü atmır!

**Özlərini "sülh göyərçini" kimi göstərib regiondakı vəziyyətin yenidən pozulmasına tərəf yönələn, ya da qəsdən yönləndirilən hadisələrdə rol almaqdadırlar**

Yeri gəlmişkən, daha bir detalı da qeyd etmək mümkündür. Misal üçün, rus SM kontingentinin hərbçiləri hətta Azərbaycan qanunları ilə axtarışda olan və cinayət məsuliyyəti daşıyan şəxsləri də rahat qaydada ərazilərimizə buraxırlar. Laçın dəhlizindən Xankəndiyə keçən ermənilərdən biri də Vova Vartanovdur. O, 44 günlük müharibə zamanı terror təşkilatı yaradaraq, könüllü batalyon adı altında hərbi cinayətlər törədib, sonradan isə Ermənistan silahlı qüvvələrində ştata götürülüb. Elə quldur rejimin başçısı Araik Arutyunyan, rejimin "təhlükəsizlik şurasının" rəhbəri Vitali Balasanyan da Azərbaycan tərəfindən beynəlxalq axtarışa verilib və rusiyalı SM-lar heç onların da saxlanılaraq bizə təhvil verilməsində nəinki maraqlı görünmürlər, ümumiyyətlə bu barədə düşünmürlər belə! Əksinə, özlərini "sülh göyərçini" kimi göstərib regiondakı vəziyyətin yenidən pozulmasına tərəf yönələn, ya da qəsdən yönləndirilən hadisələrdə rol almaqdadırlar.

**"İskəndər-M" raketləri kimi ciddi və çoxlu suallar doğuran bu məsələnin də izahı niyə verilmir?!**

Halbuki, üçtərəfli bəyanatda əksini tapan və Azərbaycanın rəsmi icazəsi olmadan Qarabağı dağlıq ərazisinə daxil olmağa izin verməyən bir olay buna qədər yaşanmışdı. Belə ki, həmin vaxt bir qrup fransız jurnalisti İrəvanın verdiyi qeyri-qanuni akkreditasiya səbəbindən əraziyə buraxılmamışdı. Rusiya SM-ı icazə üçün onların məhz Azərbaycan dövlətindən icazə almalarını istəmişdi. Bu zaman nə baş verir? Ruslar sözügedən oyunbazlıqları ilə nə deməyə çalışırlar? Və ya Xankəndiyə daxil olmaq üçün Rusiya və Ermənistan vətəndaşları hansı əsasla istisna olunurlar? Çünki yalnız Ermənistan rəsmiləri deyil, eləcə də Rusiyanın vətəndaşları, xüsusilə hərbi adamları dəfələrlə İrəvan-Xankəndi marşrutu ilə hərəkət ediblər. "İskəndər-M" raketləri kimi ciddi və çoxlu suallar doğuran bu məsələnin də izahı niyə verilmir?!

**Azərbaycan Prezidenti İlham Əliyev: "Rusiya sülhməramlılarının xarici vətəndaşları gizli şəkildə Dağlıq Qarabağa buraxdığını görəndə təəccüblənirik"**

Elə Rusiya da yaxşı bilir və dərk edir ki, Ermənistanın rəsmi şəxsləri, dövlət məmurları Azərbaycanın ayrılmaz və əbədi ərazisi olan Qarabağa təmiz dağ havası udmağa gəlmirlər, əksinə! Məqsəd növbəti illərdə də münaqişə ocağını qızışdırmaqdan, regionu sabitlik mərhələsindən uzaqlaşdırmaqdan ibarətdir və ruslar da bunu yaxşı bilirlər, özü də belə planlar haqqında tam şəkildə məlumatlıdırlar.

Laçın dəhlizi müvəqqəti olaraq rus SM-nın nəzarətinə verilib və burada məqsəd yalnız və yalnız humanitarlıq məsələlərindən ibarətdir. Digər başqa məsələlər Laçın dəhlizinin istismarına bağlı hədəflərdir ki, burada da qeyd etdiyimiz kimi, siyasi təxribatlara yol açılır. Bunun isə qarşısı dərhal alınmalıdır, çünki nəticəsi yaxşı heç nə vəd etmir.

Vurğulamaq yerinə düşərdi ki, mövzu ilə bağlı Azərbaycan Prezidenti cənab İlham Əliyev də dəfələrlə qətiyyətli fikirlərini irəli sürüb. Misal üçün, fevral ayının sonunda yerli və xarici KİV nümayəndələri üçün təşkil edilən konfrans zamanı dövlətimizin başçısı deyib: "İndi Rusiya sülhməramlılarının xarici vətəndaşları gizli şəkildə Dağlıq Qarabağa buraxdığını görəndə təəccüblənirik. Rusiya tərəfi ilə razılaşdıq ki, xaricilər ora yalnız bizim razılığımızla daxil ola bilərlər. Və müqavilə pozulur..."

**Əks halda, Azərbaycanın torpağında qeyri-müəyyən sülhməramlılıq prinsiplərinə son qoyulacaq**

Həqiqətən də belədir və indi də bu cür davam etməkdədir. Bakının narazılığına baxmayaraq, rus sülhməramlılarının Qarabağa Ermənistan vətəndaşlarını buraxmaları Azərbaycanın suverenliyini pozur. Təbii ki, belə bir qanunsuz praktika bundan sonra davam edə bilməz və etməməlidir. Çox ehtimal ki, əlavə xüsusi sənədin hazırlanması başlaya və üçtərəfli bəyanatdan başqa həmin sənəddə sözügedən məsələ bütün detalları ilə, eləcə də Azərbaycanın suveren hüquqlarına hörmətlə yanaşılması amilləri müəyyən edilə bilər. Əks halda, Azərbaycanın torpağında qeyri-müəyyən sülhməramlılıq prinsiplərinə son qoyulacaq. Daha dəqiq desək, 44 günlük Vətən müharibəsində Qarabağın 30 illik işğalına son qoyan Azərbaycan kimin, hansı ölkənin tərəfindən edilən cəhdlərə baxmayaraq, öz hüquqlarının yenidən pozulmasına heç vaxt imkan verə bilməz!

*Rövşən RƏSULOV*



# "ADA Universitetində keçirilən beynəlxalq konfrans böyük əhəmiyyət daşıyır"

**Prezident İlham Əliyev ADA Universitetində keçirilən beynəlxalq konfransdakı çıxışında dünyaya önəmli meajlar verdi. Beynəlxalq və yerli ekspertlər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında sözügedən konfransın əhəmiyyətini yüksək dəyərləndirirlər.**

Çıxışı zamanı hər bir detala ayrıayrılıqda toxunan dövlətimizin başçısı yeni dövrdə Cənubi Qafqazda formalaşmış təhlükəsizlik formatının əsas elementlərini dəqiq şəkildə ifadə etdi. Cənab Prezident qeyd etdi ki, Ermənistan münaqişənin həllini istəməyib və hər zaman münaqişənin dondurulması niyyətində olub. Əraziləri azad etdikdən sonra gördüklərimiz də göstərir ki, münaqişənin həllinin olmaması üçün hər şey ediblər. Onlar nəhəng istehkamları, müdafiə xətlərini tikməklə, milyonlarla dollarlıq vəsait cəlb etməklə bu əraziləri həmişəlik işğalda saxlamaq istəyiblər. Ermənistan Birinci Qarabağ müharibəsində də müharibə cinayətləri törədib. Lakin o vaxt informasiya mühiti fərqli idi. Vəhşiliklərlə və barbarlıqla bağlı çoxlu faktlar sənədləşdirilməyib və sənədləşdirilsə belə, bu, beynəlxalq ictimaiyyətə çatmayıb. Beləliklə, onlar o zaman bir çox müharibə cinayətlərini gizlədə biliblər. Vətən müharibəsi zamanı beynəlxalq ictimaiyyət bir daha erməni barbarlığının şahidi oldu. Mülki əhaliyə qarşı törədilmiş cinayətlər erməni siyasətinin xislətindən xəbər verir. İkinci Qarabağ müharibəsi zamanı onlar beynəlxalq ictimaiyyətin gözü qarşısında bizim şəhər və kəndlərimizi ballistik raketlərlə bombalayıblar, hər gün artilleriya atəşinə tutublar. Azərbaycan XXI əsrin müharibəsini aparmaqla yanaşı, həm də mənəviyyat müharibəsi aparırdı. Müharibə zamanı hərbi qulluqçularımız ləyaqətlə davranıb, mülki şəxslərə zərər yetirməyiblər. Ermənistan tərəfində mülki əhali arasında tələfatın 40 nəfərdən az olması da bunun əyani sübutudur.



**Məmmədova Nəzrin Novruz qızı YAP Xəzər rayon təşkilatı Gənclər Birliyinin sədr müavini**

Sülhün və sabitliyin təmin olunması üçün ən vacib vəzifələrdən biri qarşılıqlı etimad mühitinin yaradılmasından ibarətdir. Lakin Ermənistanda səslənən bəyanatlar belə bir etimadın formalaşmasına xidmət etmir. Lakin onlar qəbul etməlidir ki, müharibənin nəticələri bütün regionda yeni şərtlər yaradıb. Ermənistan bu yeni şərtlərin diktə etdiyi reallıqlarla barışmalıdır. Azərbaycan regionda davamlı və daimi sülhün yaradılmasında maraqlıdır. Kommunikasiyaların açılması, qarşılıqlı dialoq üçün etimadın formalaşması Cənubi Qafqazın tərixində yeni inkişaf mərhələsinin vacib şərtlərindəndir. Nüfuzlu beynəlxalq ekspertlər, siyasi prosesləri, münaqişələri təhlil edən beyin mərkəzləri birmənalı şəkildə bildirirlər ki, yeni müharibənin baş verməsi real görünmür, çünki Ermənistanın müharibə aparmağa gücü yoxdur, Azərbaycan isə bunda maraqlı deyil. Bu baxımdan, Ermənistanın siyasi elitası daha çox mövcud şərtlər daxilində gələcəyə baxmalıdır, keçmişə ilişib qalmaq bu ölkəni daha böyük fəlakətlərə sürükləyə bilər.

Əlbəttə ki, müharibənin izlərini qısa müddətdə silmək çox çətindir. İşğaldan azad olunmuş ərazilərin acınacaqlı durumu, Ermənistanın həyata keçirdiyi hərbi cinayətlərin faciəli nəticələri çox ağır mənəvi-psixoloji mühit yaradıb. Yalnız Ermənistan yeni situasiyanı, real imkanları, qüvvələr nisbətini düzgün qiymətləndirməlidir.

Cənab Prezident bu konfransda həm regional, həm də beynəlxalq məsələlərə son dərəcə peşəkar bir siyasətçi kimi münasibət bildirdi. Orada aydın şəkildə hiss olunurdu ki, qonaqların çoxu böyük heyranlıqla Prezident İlham Əliyevin bu məsələlərə peşəkar münasibət bildirməsini çox yüksək qiymətləndirdilər. Konfransda Prezident İlham Əliyevin toxunduğu məqamlar Azərbaycan həqiqətlərinin təbliği baxımından xüsusi önəm daşıyır.

# Şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət qayğısı və institusional təşəbbüslər



Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsi Böyük Zəfərlə başa çatdırdı. Düşmən işğalından azad edilən əzəli yurd yerlərimizin hər qarışında şəhidlərimizin, qazilərimizin qanı var. Vətən oğullarının müqəddəs savaşda göstərdikləri hünər, cəsarət bugünkü nəslə ən gözəl vətənpərvərlik, qəhrəmanlıq örnəyidir. Dövlətimiz şəhid ailələrinin və qəhrəman döyüşçülərimizin qayğılarının diqqət mərkəzində saxlamağı, problemlərinin həll edilməsini, onlara xüsusi diqqət və qayğı göstərilməsini özünün ən mühüm vəzifələrindən biri hesab edir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə "YAŞAT" Fondunun yaradılması şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına göstərilən dövlət qayğısının ən bariz örnəyidir. "YAŞAT" Fondunun fəaliyyəti cəmiyyət və dövlət birliyinin təcəssümü, milli birliyin və həmrəyliyin göstəricisidir. Könüllü şəkildə ölkə vətəndaşlarından, ölkədən kənarda yaşayan soydaşlarımızdan ianələrin köçürülməsi hesabına maliyyələşən Fondun humanitar missiyası cəmiyyətimiz tərəfindən rəğbətlə qarşılanır. Şəhid ailələrinin və qazilərin sosial şəraitinin yaxşılaşdırılmasında həyata keçirilən bu prosesin faydalı nəticələri Fondun vətəndaşlar tərəfindən davamlı dəstəklənməsini şərtləndirən amillərdəndir.

Vətən müharibəsində şəhid olmuş və yaralanmış şəxslərin ailələlərinə baş çəkmək üçün "ASAN xidmət" əməkdaşlarından və könüllülərindən ibarət bütün rayonları əhatə edən 69 qrup formalaşdırılması və onların müvafiq təlimlərə cəlb ediləarək ünvanlara baş çəkməsi bu istiqamətdə atılan uğurlu addımlardandır."Yaşat" Fondunun ictimaiyyət arasında qazandığı inamın başlıca səbəblərindən biri də bu Fondun fəaliyyətindəki şəffaflıqdır. Fondun vəsaiti bu istiqamətlərdə istifadə olunur: şəhid ailəsi statusu alınana və ya əlillik müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanması; müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi; təhsil alınmasına, habelə əlavə təhsilə, peşə hazırlığının artırılmasına, eləcə də yaradıcı potensialın inkişafına kömək edilməsi ilə bağlı xərclərin ödənilməsi; məişət şəraitinin yaxşılaşdırılması. Qeyd edək ki, qısa müddət ərzində 2795 şəhidin 14 min ailə üzvü və 10 minədək yaralanan şəxslə görüşlər keçirilib, onların birinci dərəcəli ehtiyacları müəyyənləşdirilib. Öhdəliyə götürülmüş şəxslərin sayı 5275 nəfərdir. Reallaşdırılmış ödənişlərin sayı 4141-dir.

"YAŞAT" Fondunun işinin təşkili "ASAN xidmət"də çalışan şəhid ailələrinin üzvləri və qazilərə həvalə olunub və Fonda daxil olan vəsait ilə əlaqədar məlumatlar mütəmadi qaydada ictimaiyyətə təqdim olunur. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə yaradılan Qarabağ Dirçəliş Fondunun işi də cəmiyyətin diqqət mərkəzindədir. Xatırladaq ki, bu qurum Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il fərmanı əsasında publik şəxs kimi yaradılıb. Təleyüklü məsələlərin həllinə dövlətin strateji yanaşması bir daha göstərir ki, otuz ilə yaxın bir müddət ərzində ermənilər qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaq.Fonda böyük həvəslə müəyyən məbləğdə vəsaitlər köçürmələri yalnız maddiyyatla bağlı deyil. Bu gün hər kəs başa düşür ki, yığılan vəsait işğaldan azad edilən torpaqlarımızın dirçəlişi ilə yanaşı, həm də milli-mənəvi birliyimizin möhkəmləndirilməsinə xidmət edir.

Hər kəs əmindir ki, Fondun xətti ilə mərkəzləşdirilmiş qaydada görüləcək işlər nəticəsində ərazilərimiz tamamilə yenidən qurulacaq, orada infrastruktur yaradılacaq, müasir şəhər, qəsəbə və kəndlər tikiləcək, bölgəyə dinc, təhlükəsiz, rahat həyat gələcək, məcburi köçkünlərimiz daimi yaşayış yerlərinə qayıdacaqlar. Dirçəliş prosesində yeni iş yerləri açılacaq, ölkə həyatının bütün digər sahələrində də sürətli inkişafa nail olunacaq. Bütün bunlar insanların həyat şəraitinin daha da yaxşılaşdırılmasına da töhfə verəcək.2020-ci il sentyabrın 27-dən başlayaraq, Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 noyabr tarixli 2292 nömrəli Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası da bu istiqamətdə əhəmiyyətli nəticələrə nail olub.

Qeyd edək ki, Ermənistanın təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi üçün ilkin olaraq 9 068 128 manat ayrılıb. Sərəncama əsasən, dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 manat, digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 manat məbləğində maddi yardım ödənilir. Hazırda mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın dövlət vəsaiti hesabına aradan qaldırılmasına dair müvafiq təkliflər hazırlanır.Şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət qayğısı üzrə təşəbbüslərin yerli icra hakimiyyəti orqanlarını da əhatə dövlətin mövcud istiqamətdəki prinsipiallığının daha bir göstəricisidir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 yanvar tarixli Fərmanı ilə yerli icra hakimiyyəti orqanlarının strukturunda Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin nəzərdə tutulması ölkəmizdə sosial siyasətin şaxələnməsi və institutlaşdırılması istiqamətində atılan çox önəmli və əhəmiyyətli addımdır. Dövlət xidmətlərinin əlçatanlığı Vətən müharibəsi iştirakçıları və şəhid ailələrinin sosial problemlərinin həllinin sürətlənməsinə xidmət edir. Sosial dəstək proqramlarının reallaşdırılmasında və dövlət siyasətinin sosialyönümlülüyünün qorunmasında dövlətin institusional təşəbbüsləri vacib rol oynayır. Bu cür təşəbbüslər sayəsində dövlət siyasətinin sosialyönümlülüyü qorunur. Əbəs yerə deyil ki, Vətən müharibəsində şəhid olmuş döyüşçülərimizin ailə üzvlərinə, qazi və hərbçilərimizə dövlət tərəfindən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası tərəfindən Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış şəhidlərdən banklar qarşısında kredit öhdəliyi olan 830 şəhidə aid 1 503 kredit üzrə həm əsas borcun, həm də faizlərin silinməsini təmin edilib. Həmçinin şəhidlərimizin ailə üzvlərinə aid olan 286 sayda, xəsarət almış hərbçilər üzrə 1 323 sayda kreditin, şəhid olmuş 15 nəfər və ciddi zərər çəkmiş 9 nəfər mülki şəxsin borc öhdəliklərinin tamamilə silinməsinin təmin olunması bu istiqamətdə görülən işlərə aid bir nümunədir.

Vətəndaşların müraciətlərinə baxılmasında obyektivliyin təmin edilməsi üçün dövlətin irəli sürdüyü institusional təşəbbüsü artıq öz müsbət nəticələrini verir. Vətən müharibəsində iştirak etmiş hər bir hərbçinin müraciətinə həssaslıqla yanaşılır. Bu məqsədlə Müdafiə Nazirliyində səfərbərlikdən tərxis olunan şəxslərin müraciətlərinə baxılması üzrə xüsusi komissiya yaradılıb və komissiyanın bölgələrdə fəaliyyət göstərən səyyar qruplari var.Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı xəsarət almış hərbi qulluqçuların tibbi-sosial ekspertizası ilə bağlı məsələlərin operativ həlli məqsədilə xüsusi komissiya yaradılıb. Komissiyaya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Müdafiə Nazirliyinin Tibb Baş İdarəsi, habelə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəhbərliyi daxildir. Döyüşlərdə iştirak etmiş hərbçilərə psixoloji yardım da göstərilir və bu proses davam etdirilir. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmiş hərbi qulluqçulara və şəhid ailələrinə operativ, vaxtında, keyfiyyətlə və əlaqəli şəkildə psixoloji yardım göstərilməsini təmin etmək məqsədilə komissiya yaradılıb. Qazi və şəhid ailələri sosial sığortanın imkanlarından faydalanacaqlar. Şəhid, əlillik, digər ağır və yüngül xəsarətlərə görə sığorta ödənişlərinin alınması üçün hərbi qulluqçuların və onların vərəsələrinin müraciətlərinin xeyli artacağı nəzərə alınaraq AzSığorta şirkətinin daxili idarətmə potensialı artırılmışdır. Şirkətin daxili prosesləri müraciətlərin yeni miqyasına uyğunlaşdırılmış, insan resursları artırılmış, təkrarlanan əməliyyatlar avtomatlaşdırılmışdır. Vətəndaşların fiziki qəbulu üçün müasir standardlara uyğun xidmətlərtəşkil edilmiş, zənglərin qəbulu üçün telefoniya sistemi qurulmuşdur. Ödənişlərin operativ əldə edilməsi üçün geniş filial şəbəkəsinə malik olan banklarla hesablaşma əməliyyatlarının aparılması təmin edilmişdir. AzSığorta tərəfindən bu günə qədər 1 053 şəhidimizin vərəsələrinə və hərbi əməliyyatlar zamanı xəsarət almış 4 119 nəfər hərbçimizə 18 109 850 manat ödəniş edilib.

***Könül Məmmədova, YAP Şamaxı rayon təşkilatının Şura üzvü, Tərəqqi medallı***

# Ermənistanın sonsuz rüsvayçılığı və rəzaləti



Zori Balayan, Armenian fascist, main ideologist of ethnic cleaning of Turks for the sake of creation of the "Great Armenia State"

***Bakı ilə İrəvanın siyasi davranış modelləri, tərzləri, yanaşmaları tamamilə fərqlidir. Bu fərqin nədən ibarət olduğu hər kəsi düşündürdüyü kimi, demək olar ki, elə hər kəsə də bəllidir. Azərbaycan tərəfi qalib statusu fonunda belə müəyyən iş birliyi, problemlərin aradan qaldırılması, kommunikasiyaların açılması təklifləri etdiyi halda, Ermənistan tərəfi məğlub, özü də rüsvayçılıqla məğlub olması fonunda tələb və təklifləri hədəfə götürür, hətta etikadan kənar şərh də edir.***



Bakı hər kəslə ayrı-ayrılıqda dostdur və bütün qonşuları ilə, qonşu dövlətlərlə tərəfdaşlıq, əməkdaşlıq münasibətlərini qoruyub saxlayır. İrəvan isə qonşu dövlətləri ittiham da edir, günahlandırır da, yardım da diləyir və münasibətlərinin yaxşılaşdırılması istiqamətində bircə addım belə atmır, əksinə, münasibətlərin korlanması üçün az qala əlindən gələni edir. Bax, həqiqətən də fərq bundan ibarətdir və iki ölkənin bir-birindən ən böyük və qabarıq fərqi odur ki, Azərbaycan hakimiyyəti inkişafa, mövcud çətinliklərin həllinə doğru istiqamətlənən daha aydın münasibət sərgilədiyi halda, işğalçı ölkə hakimiyyətindən bir növ, "kabus davranışı" görürük.



Ermənistanın baş naziri Nikol Paşinyanın parlamentdəki son çıxışından sonra bu ölkə gündəmində nələrin müzakirə olunduğunu müşahidə etmək kifayət edir ki, işğalçı ölkənin hansı durumda olduğu barədə müfəssəl qənaətə gəlinsin. Bütün siyasi qüvvələr Ermənistanın məğlubiyyətində günahkar axtarır. Daha dəqiq desək, hamı günahkar axtarır, elə günahkarlar özləri də günah keçisi axtarışındadırlar. Maraqlıdır, o zaman günahkar kimdir və belə axtarışla kim günahkar bəllənəcək? Bir halda ki, tərəflər məsuliyyəti bir-birinin üzərinə atır kiminsə günahkar olduğu konkret olaraq çətin ki, elan edilə.

İşğalçı ölkədə daha fərqli bir ənənə, tendensiya müşahidə edilir və hamı ittihamla çıxış edir və hər kəs kimisə ittiham etməkdən başqa niyyətdə deyil. Yəni cavabdehlik, məsuliyyət haqqında kiminsə düşünmək fikrində olmadığı göz önündədir. İş o yerə çatıb ki, hətta ideoloji baxımdan bir-birinə yaxın olan Ter-Petrosyanla Paşinyan da bir-birlərinə qarşı ittihamlar səsləndirirlər. Yaxşı, əgər bunların heç birində günah yoxdursa, bu halda günah kimdədir?

Bəzi qüvvələr iddia edirlər ki, "Ermənistan və Azərbaycan ancaq beş ay əvvəl müharibə vəziyyətində olub" və dərk etmirlər, yaxud dərk etmək istəmirlər ki, bu, axmaqlıq və yalandır. Ermənilərin münaqişəsi, düşmənçiliyi uzun müddətdir davam edir. Uzun müddətdir ermənilər Azərbaycan ərazilərinə göz dikiblər və bu əraziləri özününküləşdirmək, işğal etmək üçün ən rüsvayıcı müxtəlif yollara əl atırlar ki, bunlardan da biri terrorçuluq və separatçılıqdır. İllər uzunu, əsrlər boyu mədəni irsimizi, tarixi abidələrimizi dağıtmaqla, yaxud rekonstruksiya etməklə, əl gəzdirməklə, öz adlarına çıxmaqla çoxdandır ki, belə qəsbkarlıq siyasətinə xidmət edən ermənilər indi hansı üzlə deyirlər ki, münaqişə və müharibə vəziyyətində beş ay bundan əvvəl olub Ermənistan? Bu düşüncəyə, bu ağıla qulluq etmək özü də rüsvayçılıq, rəzalət deyilmi? Mənfur qonşular nəzərə almalıdırlar ki, belə torpaq iddiası ilə həyasızlıq etməkdə davam edəcəkləri təqdirdə rüsvayçılıqları, rəzalətləri də davam edəcək, özü də sonsuza qədər.

Hazırda Ermənistan hakimiyyəti "hərbi əsirlər" mövzusunu dövriyyəyə buraxıb və bununla da öz müqəddəratı üçün çalışır. İndi "hərbi əsirlər" mövzusunu gündəmdə görmək istəyən Ermənistan rəhbərliyi bu bəhanə ilə hakimiyyət müddətlərini uzatmaq istəyindədir. Amma alınan deyil, çünki qarşılarında yeni bir reallıq var və bu da ondan ibarətdir ki, ermənilərin indi hərbi əsir adlandırmağa çalışdıqları heç də hərbi əsirlər deyillər. Hərbi əsirlər hərbi əməliyyatların getdiyi dövrdə saxlanılan, tutulan əsirlərə deyirlər. Amma, indi Ermənistan hakimiyyətinin hərbi əsir kimi qələmə verməyə çalışdığı erməni əsillilər, hansıki, Paşinyan kapitulyasiya sənədini imzaladıqdan sonra Azərbaycan tərəfindən tutulub, onlar sadəcə terrorçular, separatçılardır. Onların isə mühakiməsi və barələrində görüləcək tədbirlər beynəlxalq hüquq normaları çərçivəsində, eləcə də ölkə konstitusiyasının tələblərinə əsasən olacaq ki, erməni səlahiyyətlilər, eləcə də erməni cəmiyyəti başqa heç nəyə ümid etməsinlər. Əks halda bu istiqamətdə də rüsvayçılıqları, rəzillikləri sonsuza qədər davam edəcək.

Ümumiyyətlə, Ermənistanda ayıb, rəzalət, rüsvayçılıq məvhumuna, anlayışına tamamilə fərqli şəkildə yanaşılır.

Ermənistanda tərəfdaşlara, əməkdaşlara xəyanət açıq şəkildə ayıb sayılmır. Ayıb sayılan bircə məsələ var ki, o da ermənilər tərəfindən qəsb edilmiş, işğal edilmiş torpaqları sahiblərinə qaytarmaqdır. Axı bu kütlə mövcudluğundan bu vaxta qədər kimlərinsə hesabına, kimlərinsə torpaqları hesabına dövlət qurub və suveren, müstəqil dövlətçilik arzularını gerçəkləşdirməyə yaxın olublar. Ona görə yaxın olublar, gerçəkləşdirməyiblər ki, Ermənistan Azərbaycan dövlətindən fərqli olaraq daim Rusiya və İran kimi qonşu dövlətlərin, eləcə də Fransa kimi fövqəl Avropa və ABŞ kimi fövqəl dünya dövlətlərinin təsiri altında, bir növ asılı kimi var olub. Bu ölkənin öz tarixi barədə dünyaya təqdim etdikləri də düzgün olmayıb və saxta tarix olaraq qəbul olunur. Öz torpaqları olmayan, ərazilərə köçkün kimi, sığınacaq olaraq köçürülən ermənilər hər zaman torpaq arzusunda olublar və "qopardıqları torpaqları" öz əraziləri kimi görməyə, daha doğrusu göstərməyə çalışıblar. Buna müvəffəq olmayan, yaxud bu torpaqları əldə saxlaya bilməyən səlahiyyətlilər yalnız onların gözündə xain sayılır ki, bu özü də anormal yanaşmadır.

Bir daha diqqətə çatdırmaq istərdik ki, Bakı hər kəslə, ABŞ ilə, bəzi Avropa Birliyi ölkələri ilə, Çinlə, Rusiya ilə, Belarusiya ilə, Qazaxıstan ilə, Ukrayna ilə, İsrail ilə və digər ölkələrlə ayrı-ayrılıqda dost münasibətdədir. Bəs Ermənistan necə? Hansı ölkələrlə dostluq münasibətlərinin olduğunu demək olar? Bəlkə də hansısa ölkə ilə müəyyən bir mənada yaxınlıq müşahidə oluna bilər, amma bu ölkə ilə də dostluq münasibətindən danışmaq mümkün deyil. Çünki, Ermənistan üçün ümumi maraqlar, tərəfdaşlıq və əməkdaşlıq məsələləri deyil, öz işğalçılıq mövqeyi vacib hesab olunur ki, bununla da döstluq münasibətləri qurmaq mümkünsüzdür, heç bundan sonra ermənilərin buna ümidləri belə yoxdur.

Ermənistan vətəndaşları ölkədə hakimiyyəti elə adamların əlinə veriblər, elə adamlara həvalə ediblər ki, onlardan ancaq bir növ kabus davranışı görürük. Bunun ermənilər özləri də fərqindədirlər. Əslində, erməni cəmiyyəti öz həyatını yaxşı etmək üçün onlara hakimiyyəti həvalə edib, amma yanıldığını da dərk edib və indi haqlı olaraq geri tələb edir. Çünki, səlahiyyətlilər, Ermənistan hakimiyyəti onların həyatlarını yaxşılaşdırmaq əvəzinə, tam bir kabusa və xəcalətə çevirdilər. Özü də hələ sonu görünməyən bir xəcalətə və rüsvayçılığa. Təkcə hazırki Ermənistan hakimiyyəti deyil, bundan əvvəlkilər də elə düşmənçilik, elə rəzalət toxumları səpiblər ki, bu rüsvayçılıq erməni cəmiyyətinin alnında ləkə olaraq uzun müddət, əsrlərlə qalacaq. Nəzərə almaq lazımdır ki, 44 günlük müharibədə Ermənistan təkcə məğlubiyyətlə deyil, sonsuz rüsvayçılıq və rəzalətlə qarşılaşmalı oldu. Məhz mif kimi qələmə verdikləri ordularının, silahlı qüvvələrinin bir puç, bir heç olduğu, rəzaləti ilə qarşılaşdılar ermənilər. Ermənilərin alnında əbədi olaraq məğlub xalq damğası və rüsvayçılığı, rəzaləti qaldı. Əgər, erməni cəmiyyəti və Ermənistan hakimiyyəti reallıqları olduğu kimi qəbul etməzsə bu rüsvayçılıq sonsuza qədər onları izləyəcək və bir an belə sakit buraxmayacaq, bir-birinin ardınca faciələrlə üz-üzə qoyacaq.

***İnam Hacıyev***

# Radikal müxalifətin əsl üzü: pul, tamah və satqınçılıq...

## *Yaxud Vətəni, milləti satan radikallar hansı üzlə ədalətdən dəm vurur?*

***Deyir, satqın üçün hər şey - satılıq maldır. Xüsusilə də, 28 ildir ki, "müxalifətçiyəm",-deyib duran, satqınlıq "emblemi" olan, Qərb dairələrinin çirkin, ölkəmizin mənafeyinə zidd olan oyunlarında yer almağı daha üstün tutan satqınlar yuvası olan AXCP-"Milli Şura" öz "mübarizəsini" yalnız qara piar kampaniyalarının əsasında qurur, istər müxalif mətbuatında, istərsə də sosial şəbəkələrdə yalan rəqəmlərlə çıxış etməklə dividend qazanmağa çalışaraq çəkinmədən xalqın adından danışır, özünü şişirtməyə çalışır.***



Təəssüf ki, beləleri siyasi mübarizə anlayışını yalnız qeyri-sivil metodların arasında axtarır, əksər hallarda ölkənin qanunlarını pozmağı siyasi mübarizə ilə sinonimləşdirir. Hətta bir çox məqamlarda öz keçmişini, indisini, atdığı addımları, etdiyi səhvləri belə unudur, ölkənin, millətin düşmənləri ilə isti münasibətlər quraraq "dostluq sazişləri" bağlayır, ölkənin inkişafının təminatı olan, demokratik cəmiyyətin qurulması uğrunda illər uzunu planlı iş aparan, hüquqi dövlət quruculuğu sahəsində əsaslı islahatlar həyata keçirən Azərbaycan hakimiyyətinə qara yaxmaqdan əl çəkmirlər. Öz təbliğatını gördüyü və ya görəcəyi işlərlə deyil, hakimiyyətin üstünə böhtan atmaq "planı" üzərində quran Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli, Arif Hacılı, Gültəkin Hacıbəyli, Leyla Yunus, Sevinc Osmanqızı, Vidadi İskəndərli bu kimi ünsürlər və onların ətrafı sosial şəbəkələrdə bu Qalib dövlətin uğurlarına gölgə salarkən niyə dönüb bir anlıq geriyə çevrilib hakimiyyətdə olduqları bir il müddətində xalqa, dövlətə qarşı hansı "oyunlar" oynadıqlarını xatırlamırlar. Çünki onlar geriyə çevrilməkdən qorxurlar. Çünki geridə 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talan etmə faktları və digər günahları onların gözünə görünə bilər. 1992-1993-cü illərdə Azərbaycan prezidenti olmuş Əbülfəz Elçibəyin dediyi fikir Əli Kərimli, İsa Qəmbər...kimilərin iç üzünü aydın göstərir. Mərhum Ə.Elçibəy demişdi: "Rüşvət alanda milyonlarla dollar alırsınız, o zaman alırsan heç olmasa yüz minlərlə yox, beş manat al, insafla al. Deyirlər, 200 min dollar verməlisən, yoxsa səni gömrükdən buraxmayacam, çünki sən 400 min dollar qazanacaqsan. Gəl qazancı yarı bölək...". Və bu gün sosial şəbəkələrdə Vətənini, torpağını satılmağı və satmağı bacaran AXCP sədri Əli Kərimli, "Milli Şura" deyilən satqınlar yuvasına sədrlik edən, saçına, "başına" hörmət etməyən Cəmil Həsənli həyasızcasına AXC-Müsavatla bağlı dövlət başçısının dediyi real faktları özlərinə sərf edən formada "təhlil" edərək bugünkü uğurlara kölgə salmağa çalışırlar. Və sosial şəbəkələrdə həyasızcasına "torpaq uğrunda" çağırışını edirlər. Bax, həyasızlıq budur.

### Bu münaqişə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin acı mirasıdır...

Bugün bu həyasızlaşmış radikal müxalifət 28 il ərzində xəyanətkar, cinayətkar əməllərinin üstündən özləri xətt çəksə də, xalq bu tarixin şahididir. Dövlət başçımız dəfələrlə çıxışlarında, müraciətlərində, işğaldan azad olunmuş torpaqlara tarixi səfərləri zaman bildirib ki, bu gün işğaldan azad etdiyimiz torpaqları AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduqları dövrdə satıblar.

Dövlət başçımız bildirib ki, bu münaqişə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin acı mirasıdır: "Çünki məhz onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşüb. Bunu hər kəs bilməlidir. Şuşanın işğalı böyük faciə idi. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. Azərbaycan Xalq Cəbhəsi istənilən yollarla hakimiyyətə gəlmək istəyirdi. O, əvvəlki hakimiyyəti yıxmaq üçün ən çirkin, ən xəyanətkar əməllərə əl atdı, Şuşanı ermənilərə təhvil verdi. Hərbçilər yaxşı bilirlər, Şuşa alınmaz qaladır. Onu almaq mümkün deyil. Onu təhvil verdilər, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər. Əfsuslar olsun ki, belə də oldu. 1992-ci ilin mayında Şuşa və Laçın işğal edildi, Xalq Cəbhəsinin dəstələri qanunsuz yollarla hakimiyyətə gəldi. Ondan sonra nə etdilər? Ondan sonra ölkəmizi dağıtmağa başladılar".

### Radikalların ermənisayağı vandal siyasəti....

Belə deyildisə, niyə İkincir Qarabağ müharibəsinin ilk başladığı gündən qələbə qazanmağımızı böyük sevinc və əhval ruhiyyə ilə qeyd edən xalqımızın keçirdiyi yürüş zamanı AXCP-"Milli Şura"-Müsavat satqınları Milli Məclisin binasına hücum edərək vandal edərək öz xislətlərini bir daha göstərdilər. Bu təəcüb də doğurmur. Azərbacan xalqı onları yaxşı tanıyır. Ona görə bu tarixi hər kəs bilməlidir. Çünki Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar və satqın hərəkətləri 28 ildir ki, davam edir.

Dövlət başçımızın dediyi kimi: "Qorxaqlıq, satqınlıq, fərarilik. Başqa ad yoxdur. Hamı da bunu bilməlidir. O birilər nə etdilər? O vaxtkı dövlət katibi indi özünü guya müxalifət adlandırır. Amma o hansı müxalifətdir Azərbaycan xalqı yaxşı bilir. Onların tərbiyəsi, mərifəti, addımları nədən ibarətdir, indi bütün vətəndaşlar internetdə görürlər. Mən demişəm ki, Azərbaycanda nə qədər pis olsa, onlar üçün o qədər yaxşıdır".

Kimlərdir bunlar? Xalq düşmənləri! Çünki bu o kəslərdir ki, Azərbaycanın uğurlarını həzm edə bilmir, probdlemlərinə sevinirlər. Dövlət başçımızın dediyi kimi: "Görün, nəyə sevinirlər! Sevinirlər ki, neftin qiyməti 14 dollara düşüb. Buna kim sevinir? Bir Ermənistan, bir də özünü müxalifət adlandıran bu antimilli şura. Neftin qiyməti 14 dollara düşəndə, axı insanlar bundan əziyyət çəkəcək, problemlər yaranacaq, sosial sahədə problemlər yaşana bilər, iqtisadiyyatımız yavaşıyar. Amma bu onların işinə yarayır, Azərbaycan üçün nə qədər pisdir, onlar üçün o qədər yaxşıdır. Bax, onlar o vaxt da bu prinsiplə yaşayırdılar. Ona görə torpaqlarımızı əldən verdilər. Dövlət katibi o vaxt prezidentlə bir yerdə fərarilik edib. O da getdi gizləndi Kələkidə. Parlamentin sədri fərarilik etdi. Onlar fəraridirlər, satqındırlar, xaindirlər. Hər kəs bunu bilməlidir, heç kim bunu unutmamalıdır".

Bəli, etdikləri cinayətləri unutmamalıdırlar, bu satqınlar. Çünki tarix unudlumur və xalq da unutmur onların əməllərini. Və bu gün sosial şəbəkə virusları cinayəti demokratiya, əxlaqsızlığı şəxsi həyat, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməyi "siyasi mübarizə" adlandıraraq özlərini "əsl müxalifətçi" hesab edirlərsə, o zaman susmaq haraya qədər? Göründüyü kimi, radikal müxalifət başqa cürə də hərəkət edə bilməz, çünki onlar əsl simalarını nümayiş etdirirlər. Və bu parazitlr anlamırlar ki, "sirkə nə qədər tünd olsa öz qabını çatladacaq". Çünki onlar erməni lobbisinin göstərişlərinə uyğun idarə olunurlar və sözsüz ki, Vətən, millət, dövlət, xalq anlayışı belə şəxslərə yaddır. Və bütün bunlardan sonra istər Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Leyla Yunus və bu kimi satqınların Azərbaycan xalqı adından danışmağa, ümumiyyətlə, bu ölkədə yaşamağa hüququ varmı...?!Artıq, bu sualın da cavabını hüquq-mühafizə orqanları versələr daha yaxşı olardı. Çünki bu məsələ get-gedə daha çox qabarmaqdadır... Vətənə və dövlətə qarşı xəyanət yolu tutan bu satqın və naqis xəyanətkarlar gec-tez öz layiqli cəzalarını almalıdırlar.

***Rəfiqə HÜSEYNOVA***

## Bayden yenə də çaşdı: Putinə Klutin dedi...



ABŞ prezidenti Co Bayden çıxışı zamanı Rusiyadan olan həmkarı Vladimir Putinin soyadında səhvə yol verib. SİA RİA Novostiyə istinadən xəbər verir ki, çıxışının videoklipi Ağ Evin YouTube kanalında da mövcuddur. "Prezident Klutinə... Putinə, də açıq şəkildə bildirdim ki, ABŞ Avropadakı müttəfiqlərinə və tərəfdaşlarına verdiyi dəstəyində dəyişməz, sarsılmaz olaraq qalır", deyə Bayden söyləyib. Eyni zamanda siyasətçi az qala "eskalasiya" və "peyvənd" sözlərini qarışdırmışdı. "ABŞ peyvənd... eskalasiya və Rusiya ilə qarşıdurma dövrü başlatmağa çalışmır", deyib Amerika lideri.

Xatırladaq ki, əvvəllər də Bayden öz çıxışında çoxlu səhvlərə yol verirdi. Məsələn, 2020-ci ilin noyabrında tərəfdarları qarşısında çıxışı zamanı nəvəsinə vəfat etmiş oğlunun, Bo Baydenin adı müraciət edib və dekabr ayında səhvən Kamala Harris-i "seçilmiş prezident" adlandırıb.

***İnam Hacıyev***

# Koronavirusdan qorunmaq üçün xüsusi qida var?

***Bütün dünyaya yayılan yeni tip koronavirus ( COVID-19 ) pandemiyasından insanları qoruyacaq xüsusi bir qida yoxdur. "İki sahil" xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssisi İbrahim Əhmədov deyib.***




O bildirib ki, ümumiyyətlə hansısa qidanın hər hansı bir xəstəliyin qoruyucusu olmasını demək doğru olmaz: "COVID-19-a gəldikdə isə bu müddət ərzində başa düşdüyümüz odur ki, bu xəstəliyə qalib gəlmək üçün yüksək immun sisteminə sahib olmalıyıq. Bu baxımdan hər zaman vurğulanan sağlam və balanslaşdırılmış qidalanma bir daha öz önəmini qazanır.

Bütün bioloji fəal komponentlər yəni, əvəzolunmaz amin turşular, doymamış yağ turşuları, vitaminlər, mikroelementlər, minerallarla zəngin olan bütün məhsullar bu patalogiyanın qarşısının alınmasında insan orqanizminə yardımçı vasitə hesab oluna bilər. İlk növbədə onu bilməliyik ki, orqanizmdə immun sistemin möhkəmliyi zülal kompanenti ilə bağlıdır. Bu səbəbdən əvəzolunmaz amin turşuları ilə zəngin olan tam dəyərli zülal mənbəyi olan məhsullar bilavasitə immunitetin yüksəlməsində aparıcı rol oynayır. Heyvani mənşəli məhsullar: süd - ağartı məhsulları, balıq, yumurta , ət məhsulları bu qrupda olan komponentlərdir.

Bu məhsullar həm zülal mənbəyi olaraq dəyərlidir , həm mineral maddələr, həm də yağda həll olan vitaminlərin yeganə mənbəyi bu adlarını çəkdiyim məhsullardır. Digər tərəfdən bilirik ki , antioksodant kimi və immun sistemin yüksəlməsində əsas rol oynayan vitaminlərdir, xüsusi ilə də suda həll olan vitaminlər. Müəyyən qrup vitaminlərin xüsusilə C, D, E, A vitaminlərinin COVID-19 zamanı orqanizmə qoruyucu təsiri çox yüksəkdir. Amma unutmamalıyıq ki , orqanizm tarazlıqda qorunub saxlanılmalıdır. Bəzən təlaşa düşüb hər hansı komponentin qəbulunun artırılması, digər komponentlərin də bədəndə artmasına şərait yaradır. Tövsiyəm bunların qəbulu ilə bərabər polivitamin preparatlarından istifadə olunmasıdır. Orqanizm çox mürəkkəb mexanizmdir. Adət etdiyimiz gündəlik qidalanmada əsas elementləri unutmamalıyıq".




*Valentina Matviyenko: "Proses siyasi bir kanala keçib. Bu, sağlam təfəkkürün qələbəsidir. İndi qalan həssas məsələləri addım-addım aradan qaldırmaq üçün dialoqu davam etdirmək vacibdir"*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# İlham Əliyev erməni xalqına açıq mesajlar verdi

Moskva-Baku platformasında yayımlanan "Anna Nemolyakina ilə Moskva-Bakı xəbərləri" proqramında regionumuzda gedən proseslər analiz olunub. Məqaləni oxucularımıza təqdim edirik.

### Danışıqlardan sonra nəyi müzakirə etdilər?

Rusiya Prezidenti Vladimir Putin və Belarus lideri Aleksandr Lukaşenko arasında telefon danışıqları aparıldı, görüş zamanı ikitərəfli münasibətlər və beynəlxalq gündəmdəki bir sıra məsələlər müzakirə edildi. Bu barədə Kremlin mətbuat xidməti məlumat verib.

Bundan əlavə, dövlət başçıları söhbət zamanı Lukaşenkonin bu yaxınlarda Azərbaycana səfəri ilə əlaqədar Qarabağdakı vəziyyətin həlli məsələsinə də toxundular. "Aleksandr Lukaşenkonun Azərbaycana yeni həyata keçirilmiş səfəri kontekstində Qarabağ nizamlanması mövzusuna da toxunuldu"- məlumatda deyilir.

Xatırladaq ki, Aleksandr Lukaşenko bu günlərdə Azərbaycana rəsmi səfər etmiş və Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqlar aparmışdır.

Azərbaycan lideri ilə danışıqlar zamanı Lukaşenko Azərbaycanın milli arzusuna çatmaq üçün böyük bir addım atdığını söylədi. Bununla birlikdə, Belarus prezidentinin sözlərinə görə, Azərbaycan hələ də geri qaytarılmış ərazilərdə həyatın bərpası üçün çox ağır, dinc iş aparır. Lukaşenko, həmçinin Azərbaycan lideri İlham Əliyevə Qarabağın azad edilmiş ərazilərinin bərpasında kömək təklif etdi.

### Cəmiyyətə mesajlar gətirin

Ermənistanda Azərbaycanı şeytanlaşdırmaq siyasəti o qədər davam etdi və azərbaycanlılar düşmən kimi təqdim edildi ki, sanki Azərbaycan Ermənistanı və Qarabağı işğal etmiş kimi təqdim olundu. Cəmiyyətin əks-rəyinin reallaşması üçün vaxt lazımdır. Azərbaycan dövlətinin başçısı bunu Bakıda ADA Diplomatik Akademiyasında "Cənubi Qafqaza Yeni Baxış" adlı konfransda çıxış edərkən söylədi. İlham Əliyev bir daha vurğuladı ki, rəsmi Bakı erməni tərəfindən fərqli olaraq, İrəvana doğru addımlar nümayiş etdirir.

"Bu davranışı yalnız müharibə dövründə deyil, ondan sonra da nümayiş etdirdik. 1500-dən çox erməni əsgərinin cəsədini Ermənistana təhvil verdik. Rusiya sülhməramlıları ilə birlikdə axtarış əməliyyatlarında iştirak edirik. Onu da deyim ki, 1-ci Qarabağ müharibəsində 4000 hərbçimiz itkin düşdü və bircə cəsəd də bizə qaytarılmadı. Aramızdakı fərq budur. Rusiya sülhməramlı qüvvələrinə dəmir yolumuz vasitəsilə maneəsiz nəqliyyat və lojistik dəstək veririk. İmtina edə bilərdik, amma icazə verdik. Bu, həm də bir göstəricidir, bir növ jestdir. Zəngilan və Qubadlı rayonları ərazisindəki ermənilərin 21 kilometrlik yolumuzdan istifadə etməsinə icazə veririk ".

Eyni zamanda, Azərbaycan Prezidenti gələcəkdə azərbaycanlılarla ermənilər arasında münasibətlərin necə olacağını proqnozlaşdırmanın çətin olduğunu inkar etməyib. Azərbaycan lideri əsasən siyasətçilərin iradəsindən və siyasi müdrikliyindən asılı olacağına inanır. Buna görə də, körpülər tikmək üçün hər iki tərəfin daha aktiv olmasına ehtiyac var- dedi.

"Onların niyyətlərini bilmirik. Heç vaxt bu barədə ətraflı danışmadılar. Dəfələrlə açıq şəkildə bəyan etdim ki, münaqişənin səhifəsini bağlı hesab edirik. Ermənistanla mümkün sülh sazişindən də danışa bilərik və bu barədə dəfələrlə danışmışam. Budur planlarımız. Ancaq Ermənistandan bizə bu cür mesajlar gəlməyib. Ermənistanın baş naziri susur, Ermənistanın xarici işlər naziri çox aqressivdir. Bu gün Ermənistan Azərbaycana qarşı aqressiv olmağa imkan verəcək vəziyyətdə deyil. Bu qarşılıqlı əlaqəni birtərəfli qura bilmərik. Mövqeyimiz aydındır. Biz buna hazırıq. Bu, asan olmayacaq. Ağdam və digər ərazilərə qayıdan keçmiş qaçqınlar, ermənilərin torpaqları, əzizlərinin məzarları və dini abidələri ilə nə etdiklərini görəcəklər. Özlərini necə hiss edəcəklər? Mən proqnoz verə bilmərəm"- Azərbaycan Prezidenti deyib.

İlham Əliyev daha konstruktiv bir dialoq qurmaq üçün Azərbaycanın erməni cəmiyyətinə mesajlar verməyi bacarmalı olduğunu vurğuladı: "Münaqişə vaxtı da vətəndaş cəmiyyəti nümayəndələri arasında bir körpü yaratmağa çalışdıq. Bu nümayəndə heyəti iki dəfə Ermənistana və Qarabağa səfər etmişdir. Onlar da Bakıya gəldilər. Lakin vətəndaş cəmiyyəti nümayəndələrinin, jurnalistlərin və parlament üzvlərinin ikinci səfərindən sonra Ermənistan tərəfi bunu dayandırdı. Ermənistanın o zamankı prezidentindən bunu niyə dayandırdıqlarını soruşanda cavab verə bilmədi. Sonra məlum oldu ki, müəyyən bir yaxınlaşmadan, müəyyən əməkdaşlıq elementlərinin ortaya çıxmasından qorxdular. Yəni, həmişə buna mane olmuşdular. Ancaq indi fərqli mövqedədirlər. Erməni cəmiyyətinə mesajlar verməyi bacarmalıyıq. Bu baxımdan, mənbələr məhduddur. Hökumət Ermənistandakı sosial vəziyyəti ciddi şəkildə nəzarətdə saxlayır və dediyim kimi, Azərbaycanla bağlı hər hansı bir müsbət açıqlama xəyanət hesab olunur. Bu səbəbdən, beynəlxalq təşkilatlar, xüsusən də, münasibətlərin barışıq və normallaşması sahəsində təcrübəsi olan, eləcə də münaqişədən sonrakı dövrdə etimad qurma tədbirləri quran təşkilatlar daha aktiv ola bilər".

### İnteqrasiya prosesinə başlamaq

Azərbaycan Belarusun vasitəçiliyi ilə Avrasiya İqtisadi İttifaqı ölkələri ilə, o cümlədən Ermənistanla inteqrasiya prosesinə başlaya bilər. Bu barədə Rusiyanın RBK media holdinqi məlumat yayıb.

İlkin mərhələdə rəsmi Bakı, məsələn, Moldova kimi müşahidəçi statusu ala bilərdi. Bəzi mütəxəssislər bu cür inteqrasiyadan danışdılar.

Azərbaycan mövzusunun Aİİ-də müzakirə olunmasının dolayı səbəbi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən verilmişdir. Bildiyiniz kimi, bir gün əvvəl Bakıda Belarusun başçısı Aleksandr Lukaşenkonu qəbul etdi və Belarus liderinin vasitəçilik səylərini müsbət qiymətləndirdi.

"Belarusiya Aİİ və KTMT-də üzv kimi Ermənistanın tərəfdaşı olmaqla, eyni zamanda, Azərbaycanın yaxın dostu olan bir ölkə olaraq, Ermənistanla Azərbaycan arasında təmasların qurulmasında mühüm rol oynaya bilər".

Cavabında Lukaşenko, "bölgədə davamlı sülh" yaradılmasına kömək edəcəyinə söz verdi və fikir ayrılığının olmamasına işarə etdi.

Xatırladaq ki, mətbuatda AİI ölkələrinin 29 və 30 aprel tarixlərində Kazanda keçiriləcək Avrasiya İqtisadi İttifaqının Hökumətlərarası Şurasının iclasında Azərbaycan və Tacikistanın mümkün iştirakını müzakirə etdikləri barədə məlumatlar yayılmışdı. Təklifin Qazaxıstandan gəldiyi bildirilir.

Beləliklə, İrəvan bununla razılaşdığı təqdirdə, Bakı öz nümayəndələrini Kazana göndərə biləcək. Bunun reallaşması üçün 6 ay əvvəl müharibə vəziyyətində olan Ermənistan və Azərbaycanın bir neçə fikir ayrılığını, o cümlədən rəsmi Bakının diversant və terrorçu adlandırdığı əsirlərin geri qaytarılması məsələsini aradan qaldırması lazımdır, çünki bu şəxslər Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən atəşkəs sənədi imzalandıqdan sonra azad edilmiş torpaqlara köçürülüb. Həll olunmamış məsələlər arasında RBK-nin həmsöhbətləri bölgədəki nəqliyyat kommunikasiyalarının "buzdan təmizlənməsi" variantlarının müzakirəsini qeyd etdilər.

Əlavə edək ki, Avrasiya İqtisadi İttifaqı 1 yanvar 2015-ci ildə qurulub, İttifaqın ilkin üzvlüyünə Rusiya, Belarusiya, Ermənistan, Qazaxıstan və Qırğızıstan daxil idi. AİI milli iqtisadiyyatların rəqabət qabiliyyətini artırmaq və üzv dövlətlərin əhalisinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün yaradılmışdır.

### Sərt ifadələrdən çəkinin

Federasiya Şurasının sədri Valentina Matviyenko, Qarabağ münaqişəsi iştirakçılarını bölgədəki vəziyyətin son həllinə doğru irəliləyərək sərt bəyanatlardan çəkinməyə və qurulmuş kövrək sülhü dəstəkləməyə çağırdı. Valentina Matviyenko bunu Ermənistan Milli Məclisinin sədri Ararat Mirzoyan ilə Sankt-Peterburqdakı MDB Parlamentlərarası Assambleyası çərçivəsində baş tutan görüşdə söyləyib.

"İndi əsas olan hər hansı bir sərt açıqlamadan çəkinmək, formalaşmış kövrək, lakin yenə də mövcud olan bir sülhü qorumaq və bölgədəki son həll və gərginliyin aradan qaldırılması istiqamətində hərəkət etməkdir. Bu, yalnız Ermənistana deyil, Azərbaycana, Rusiyaya, bütün region dövlətlərinə lazımdır"- o deyib.

Federasiya Şurasının sədri hazırda Rusiya sülhməramlılarının oynadığı mühüm rolu qeyd etdi, 2020-ci ilin noyabrından bəri atəşkəsə riayət olunmasını və münaqişə bölgəsində asayişi qoruduqlarını vurğuladı.

"Sülhməramlılarımız yalnız vəzifələrini yerinə yetirmirlər, həm də yardım göstərir, hər iki tərəfdən qaçqınların qayıtmasının təhlükəsizliyini təmin edir, infrastrukturun, dağılmış evlərin bərpasına kömək edir və bütün istəklərə cavab verirlər. Əsas odur ki, qan tökülmür, dialoq siyasi, dinc bir kanala keçib. Bu sağlam təfəkkürün qələbəsidir. İndi qalan həssas məsələləri addım-addım aradan qaldırmaq üçün eyni dialoqu davam etdirmək çox vacibdir", - deyə Matviyenko cavab verdi.

Bundan əlavə, Federasiya Şurasının sədri məhbus mübadiləsi məsələsinin gündəmdə olduğunu vurğulayıb. "Rusiya əvvəlcədən hamını hamı ilə dəyişdirmək mövqeyini tutdu. Proses davam edir. Səhv etmirəmsə, 50-dən çox erməni hərbi əsir vətənlərinə qayıtdı"- Matvienko deyib.

***Tərcümə - Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

Son səhifə

17 aprel

# Dünyanı narahat edən xəbər



Elm adamları bir avtobus böyüklüyündə olan asteroidin planetimizin yanından keçdiyini açıqlayıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, maksimum diametri 8 metr olduğu düşünülən bir meteorit, 14 apreldə planetimizin yaxınlığından keçərək xarici kosmosda yoluna davam edib. Meteorit planetimizdən təxminən 20 min kilometr məsafədən keçib. Astronomlar kosmosun böyük ölçüsünü nəzərə alaraq, bu məsafəni "olduqca yaxın" olaraq xarakterizə ediblər. Qeyd edək ki, asteroid planetimizin ətrafında dövr edən peykləri vurmaqdan yan keçib.

*Arzu Elsevərqızı*

# Oruc tutmağın dəriyə faydası

***Oruc tutmağın insan sağlamlığına təsiri ilə əlaqədar araşdırmalar davam etdirilir. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, indiyə qədər aparılan araşdırmalarda orucun dəri problemlərinin qarşısını aldığı və dəri xərçəngi riskini azaltdığı ortaya çıxıb.***



Ətraf mühit faktorları və günəş işığı ilə yanaşı, yediklərimiz də dəri görünüşünə təsir göstərir. Oruc gündəlik qidalanmanı dəyişdirir. Mütəxəssislər, pəhrizdəki dəyişikliklərin sızanaqların, dəri xərçənginin və hətta, dəri yaşlanmasının qarşısını ala biləcəyini düşünürlər. Oruc, kalori qəbulunu azaldır və detoks effekti yaradaraq bədəni təmizləyir. Kalori qəbulunda bu azalma bədəndə xolesterol və trigliserid səviyyəsinin azalmasına səbəb olur. Son araşdırmalar nəticəsində, orucun iltihabi xəstəlikləri olan xəstələri sağaltdığı aşkarlanıb.

**Dəri xərçəngi riskinin azalması.**

Oruc xərçəng hüceyrələrini azaltmağa kömək edə bilər. Həlelik, siçanlar üzərində aparılan xərçəng tədqiqatı ilə bağlı daha çox araşdırma aparılması lazım olduğu irəli sürülür.

# Sahibsiz iti vurmaq istəyərkən 13 yaşlı oğlanı güllələdi



***Aprelin 7-də Abşeron rayonu, Məmmədli kənd sakini, 2008-ci il təvəllüdlü Nəbiyev Nihad Nicat oğlunun odlu silahdan açılan atəş nəticəsində baş nahiyəsindən xəsarət alması və aldığı xəsarətdən 15.04.2021-ci il tarixdə xəstəxanada ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. Abşeron rayon prokurorluğundan SİA-ya verilən məlumata görə, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilib.***

Aparılmış araşdırmalarla zərərçəkmişin həmkəndlisi, 1958-ci il təvəllüdlü Rzayev Sücəddin Abusət oğlunun özünə məxsus ov tüfəngi ilə kənd ərazisində sahibsiz itləri vurarkən ov tüfəngi ilə ehtiyatsız davranması nəticəsində açılan atəşdən Nahid Nəbiyevin baş nahiyəsindən xəsarət almasına və aldığı xəsarətdən ölməsinə əsaslı şübhələr yaranıb.

Faktla bağlı Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Sücəddin Rzayev Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# Unay Emeridən avroliqada yeni rekord

***"Vilyarreal"ın baş məşqçisi Unay Emeri futbol üzrə UEFA Avropa Liqasında yeni rekorda imza atıb.***



Qol.az xəbər verir ki, onun komandası 1/4 finalda Zaqreb "Dinamo"sunu mübarizədən kənarlaşdıraraq (1:0, 2:1) yarımfinala adlayıb. Bununla da ispanıyalı çalışdırıcı karyerasında 6-cı dəfə turnirin yarımfinalına yüksəlib ki, indiyədək bunu bacaran baş məşqçi olmayıb.

Emeri 2012-ci ildə "Valensiya", 2014, 2015 və 2016-cı illərdə "Sevilya", 2019-cu ildə "Arsenal"la final uğrunda mübarizə aparıb. O, "Sevilya" ilə 3 dəfə Avroliqanın qalibi adını da qazanıb.

# Çiyələk yarpağının faydaları



Çiyələyin revmatizmə, qaraciyər xəstəliklərinə və dəriyə bir çox faydası indi hamı tərəfindən bilinir. Amma çiyələk yarpağının faydalarından bir çox insan xəbərsizdir. Çiyələk yarpaqları da bir çox xəstəlik üçün şəfa mənbəyidir.

Baharın ən gözəl meyvələrindən biri olan çiyələkdir. Çiyələk yarpaqlarının yararsız olduğunu düşünürük və əksər vaxt atırıq. Lakin çiyələk yarpağı çiyələyin özü qədər faydalıdır.

Quru və ya nəm formada hazırlanmış çayla qəbul olunarsa bir çox xəstəliyə şəfa ola bilər. Çiyələk yarpağı çayı aterioskleroz, yüksək qan təzyiqi, qarın nahiyəsində su yığılması, böyrək və sidik kisəsi xəstəlikləri, qum və daş xəstəliklərində xəstələrə fayda gətirir.

Bəs, çiyələk yarpaqlarının hansı faydaları var?

- Bağırsaq "dostu" olan çiyələk yarpağı bağırsaq iltihabının, bağırsaq qurdlarının, bağırsaq qazının və qəbizliyin qarşısını alır. Metabolizmə də sürətləndirici təsir göstərir.
- Bədəndə yığılan ödəmi aradan qaldırmağa kömək edir. Həm də sidikqovucu bitkidir. Böyrəklərin işini tənzimləyir.
- Qaraciyəri qoruyur və qaraciyər xəstəliklərinə faydalıdır. Antioksidan xüsusiyyətə malik çiyələk yarpağı qanı təmizləyir və immunitet sistemini gücləndirir.
- Qırtlaq xərçəngindən qoruyur.
- Yuxunu asanlaşdırır və stresə qarşı faydalı bitkidir.

*Arzu Elsevərqızı*

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600